# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Bütövlüyünü və suverenliyini bərpa etmiş müstəqil Azərbaycan!**



3

№ 190 (7358)

17 oktyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Azərbaycan - etibarlı tərəfdaş, bölgənin inkişaf etmiş ölkəsi!



2

# Hayların həqiqətdən QAÇIŞ ŞOUSU




4

## Erkən ölüm riskini artıran əsas amillər BƏLLİ OLDU



6

## Kitablar və sosial şəbəkələr...



8

## "Boz kardinal"ın ifşası yeni detalları üzə çıxardı



9

## Payız fəsli və kənd təsərrüfatı



14

## Füzuliyə Füzulidən danışdım...



11

# Azərbaycan - etibarlı tərəfdaş, bölgənin inkişaf etmiş ölkəsi!







***Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu, Niderlandın Azərbaycanda yeni təyin olunmuş səfirinin, Misirin ölkəmizdə yeni təyin olunmuş səfirinin, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbərinin və Fransanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnamələrini qəbul edib***

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib. Söhbət zamanı qonağın Xankəndi şəhərində keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakının önəminə toxunuldu.



Anaklaudia Rossbax forumun yüksək səviyyədə təşkil edildiyini deyərək, həmin tədbirdə şəhərsalma məsələləri ilə bağlı çox aktual müzakirələrin aparıldığını vurğuladı. Azərbaycan-UN-Habitat tərəfdaşlığı çərçivəsində ölkəmizdə indiyədək bir neçə milli şəhərsalma forumunun keçirildiyi məmnunluqla qeyd edildi.

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan irimiqyaslı bərpa-yenidənqurma işlərinə toxunuldu, işğaldan azad edilmiş ərazilərimizdə şəhər və kəndlərimizin inşasında yeni müasir şəhərsalma modelinin tətbiq olunduğu bildirildi.

Qonaq Azərbaycanın BMT-nin Məskunlaşma Proqramına könüllü maliyyə töhfələrinə və onun fəaliyyətini dəstəklədiyinə görə təşəkkürünü bildirdi. O, COP29-un ölkəmizdə uğurla keçirildiyini vurğulayaraq, bu tədbirdə iqlim gündəliyi ilə urbanizasiya fəaliyyətinin bir araya gətirildiyini və bu xüsusda Azərbaycanın təşəbbüslərlə çıxış etdiyini məmnunluqla vurğuladı.

Görüşdə 2026-cı ildə ölkəmizdə keçiriləcək Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına hazırlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Digər mötəbər beynəlxalq tədbirlər kimi bunun da yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı Azərbaycanla BMT-nin Məskunlaşma Proqramı arasında əməkdaşlığın perspektivləri müzakirə edildi.

Prezident İlham Əliyev dünən Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Marian de Yonqun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Kopenhagendə Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşünü xatırladan Prezident İlham Əliyev həmin görüş əsnasında tərəfdaşlığımızın müxtəlif aspektlərinin müzakirə olunduğunu vurğuladı, bir çox sahədə əməkdaşlığı gücləndirmək barədə razılığın əldə edildiyini bildirdi. Hazırda Niderland şirkətlərinin ölkəmizdə müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı gələcəkdə onların sayının çoxalacağına ümidvar olduğunu ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən səfir Niderlandın Kralı Villem-Aleksandrın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Niderlandın Kralı və Baş nazirinə çatdırmağı xahiş etdi. Marian de Yonq ölkəsinin Azərbaycanla siyasi və iqtisadi sahədə güclü əməkdaşlıq etmək niyyətində olduğunu dedi, bunun qarşılıqlı fayda verəcəyinə əminliyini vurğuladı.



Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 16-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Redanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev, ilk növbədə, Şarm-əl-Şeyxdə Yaxın Şərq Sülh Sammitinin yüksək səviyyədə təşkilinə görə Misir Ərəb Respublikasına təbriklərini çatdırdı. ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən Azərbaycanın bu tədbirə dəvətini yüksək qiymətləndirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında mövcud olan etimadın və dostluğun nümunəsi kimi dəyərləndirdi.

Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərini, özünün isə Misirə rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər çərçivəsində müzakirə olunmuş mövzuların həyata keçirilməsi ilə bağlı məsələlərə toxundu. Səfir Misir Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi.

Görüşdə Hökumətlərarası Komissiyanın əhəmiyyətinə toxunuldu, yaxın vaxtlarda onun növbəti iclasının keçiriləcəyi qeyd olundu. Bakı ilə Şarm-əl-Şeyx və Qahirə şəhərləri arasında birbaşa uçuşların olduğu və bunun turizm sahəsində əməkdaşlığa ciddi təkan verdiyi vurğulandı. Söhbət zamanı mədəni və humanitar sahələrdə əməkdaşlığımızın perspektivləri müzakirə olundu.

Prezident İlham Əliyev dünən həmçinin Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul edib. Mariyana Kuyundziç etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı Tirana və Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərini məmnunluqla xatırlayaraq, həmin görüşlər əsnasında əməkdaşlığımızın inkişaf perspektivlərinə dair ətraflı müzakirələrin aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin son dinamikasını vurğulayaraq, bir il ərzində Avropa İttifaqının 3 komissarının Azərbaycana səfərinə toxundu.

Mariyana Kuyundziç Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın fəal regional diplomatiya siyasəti yürütdüyünü deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Mariyana Kuyundziç Prezident İlham Əliyevin son dövrlərdəki səfərlərinin və iştirak etdiyi beynəlxalq Zirvə toplantılarının bunun bariz nümunəsi olduğunu vurğuladı.

O, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin daha da inkişafı üçün əlverişli imkanların olduğunu deyərək, enerji, nəqliyyat sahələrində uğurlu əməkdaşlığa toxundu, Avropa İttifaqının regional nəqliyyat bağlantılarının yaradılması layihələrini yaxından dəstəklədiyini qeyd etdi.

Mariyana Kuyundziç Avropa İttifaqının ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirdi. Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Bütövlüyünü və suverenliyini bərpa etmiş müstəqil Azərbaycan!

Prezident İlham Əliyev: "Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik"

***Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan daha çətindir. Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı. Lakin xalqımız bu ağır günlərdə qətiyyətli iradə nümayiş etdirərək öz taleyinə sahib çıxmağı bacardı.***

Ərazi bütövlüyünü və suverenliyini təmin etmiş bütöv Azərbaycan Qalib və Zəfər qazanmış bir dövlət olaraq müstəqilliyinin bərpa edilməsinin 34-cü ildönümünü qeyd edir. 34 il əvvəl tarixin bu günündə Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. 18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü xalqımızın tarixinə həkk olundu. Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında müstəqillik günü, 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə müstəqilliyin bərpası günü kimi qeyd olunur. 15 oktyabr 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü kimi ölkəmizdə qeyd olunur.



## "ÖLKƏMİZİN MÜSTƏQİL DAXİLİ VƏ XARİCİ SİYASƏT STRATEGİYASININ TƏMƏL PRİNSİPLƏRİ MÜƏYYƏN OLUNDU"

Müstəqilliyinin ilk illərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir, bizim böyük bayramımızdır", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyinin bərpasına Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail ola bildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən Ümummilli Lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.

XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışı ölkəmizin tarixində həlledici məqam oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi,_Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı: "Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı".

## CƏMİYYƏTDƏ HÖKM SÜRƏN İQTİSADİ-SİYASİ VƏ MƏNƏVİ-PSİXOLOJİ GƏRGİNLİK ARADAN QALDIRILDI

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

## "AZƏRBAYCAN MƏQSƏDLƏRİNƏ DOĞRU DAİM İNAMLA İRƏLİLƏMİŞ, ÖZ HƏDƏFLƏRİNDƏN YAYINMAMIŞDIR"

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan, ilk dəfə olaraq, öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə, ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. Bu, Ümummilli Lider Heydər Əliyevin beynəlxalq nüfuzuna olan hörmətdən, Azərbaycanda sabit vəziyyətin və əlverişli investisiya mühitinin yaranacağına olan inamdan yaranmışdı. "1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi" - deyə Prezident bildirib.

Bu gün Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir və Onun əbədiliyi təmin edilir. Bütün bunlar, bir daha deməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir. Ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır... Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkününün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır."

## "AZƏRBAYCAN DÜNYA MİQYASINDA BÖYÜK RƏĞBƏTƏ MALİK OLAN BİR ÖLKƏDİR"

Dövlət başçısının dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var".

Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərini səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır. Dövlət başçısının vurğuladığı kimi, "Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var".

## "BU SONUNCU VƏSİYYƏT DƏ YERİNƏ YETİRİLDİ"

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir.

Bütün bu və ya digər amillər 34 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər tarixi gerçəklikləridir. Bu gün müstəqillik tariximizin ən şərəfli, qürurlu zamanı yaşayırıq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək tarix yazdıq. Əzəli torpaqlarımızın düşmən işğalından azad olunması üçün yol getdik. Güclü Azərbaycan ordusu cəbhədə öz sözünü deyərək, tariximizə Zəfər yazdı. "Xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. İllərdir yurd-yuva həsrəti ilə yaşayan insanlar öz yaşadıqları yurd yerlərinə mərhələli olaraq dönürlər. Artıq Azərbaycan xalqı Zəfər qazandığımız tarixi qələbədən ötən illərdə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş qalib xalq kimi qeyd edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birinə bildirdiyi kimi, "Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik".

*Nəzakət ƏLƏDDİNQIZI*

# Hayların həqiqətdən QAÇIŞ ŞOUSU

Hazırda erməni cəmiyyəti yenə də özünü müəmmalı vəziyyətdə hiss edir, müəmmalı və həmçinin də təhlükəli addımlara yol verir və belə hesab olunur ki, buna da səbəb Ermənistanın baş naziri Nikol Paşinyanın bir müddət əvvəl Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) çıxışı, həmin çıxış zamanı onun daxili auditoriyaya hesablanan sözləri olub. Daha dəqiq desək, haylar məhz erməni baş nazirin fikirlərinə görə özlərini yenə də aldanmış, yaxud, aldadılmış sayırlar. Hətta bir qədər də başlarını itirmiş kimi özlərini aparırlar. Doğrudur, hayların bir çoxları belə hesab edirlər ki, hələ də baş nazirləri onları aldatmaqda davam edir. Ümumiyyətlə, Nikol Paşinyanın şou göstərməkdə mahir olduğunu bilən, xüsusən də həqiqətdən qaçış şousu ustası olduğuna əmin olan haydar aldandıqlarını düşünürlər və narahat olurlar, amma bununla bərabər, bəzilərini ağıllarını itirir, xam xəyallara da düşürlər. Elə məhz həmin xam xəyallar da onları həqiqətdən qaçış şousu göstərməyə təhrik edir...

### Haylar erməni baş nazirin yalanlarına, qulaqlarının doldurulduğuna əmin olsalar da, azmaq üçün bir səbəb də tapıblar

Diqqətə çatdıraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu dəfə də Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) çıxışı ilə hayların diqqətini əməlli başlı cəlb edə, onları "dərin fikirlərə qərq edə" bilib və onun bu dəfə də daxili auditoriyaya hesablanan bəyanatı erməni cəmiyyətində rezonans doğurub, hansıki bunun təzahürünü də görməkdəyik. Düzdür, hayların böyük əksəriyyəti artıq açıq şəkildə bildirirlər ki, baş nazirlərinin AŞPA-da çıxışı zamanı söylədikləri erməni cəmiyyətindən bir növ, alqış qazanmağa hesablanmışdı. İndi artıq ermənilərin bir çoxları hesab edirlər ki, Nikol sadəcə olaraq, özünü prinsipial mövqedə olan biri kimi göstərməyə çalışır deyə, bu şəkildə çıxış etməkdədir. Əslində isə, onun Zəngəzur dəhlizi ilə bağlı razılaşmaqdan başqa çarəsi olmadığı və artıq sözügedən dəhlizlə bağlı razılaşmaya imza atdığı da hayların əksəriyyətinə belə yaxşıca bəllidir. Bununla belə, onun dediklərinin boş sözlərdən ibarət olduğuna, ümumiyyətlə, yalanlarına erməni cəmiyyəti artıq çoxdan alışqandır. Bəli, əslində, haylar yenə də baş nazirlərinin sözləri ilə qulaqlarının doldurulduğunun, aldadıldıqlarının fərqindədirlər, lakin yenə də "azmaq", çaşqınlığa düşmək üçün bir qığılcıma ehtiyac duyan ermənilər deyəsən yenə də sözün əsl mənasında, azıblar. Hazırda erməni cəmiyyətində əslində, ən çox müzakirə olunan məsələ, məhz sözügedən layihənin, dəhlizin onlara lazım olub-olmadığı məsələsidir. Haylar hələ də həmin dəhlizin onlar üçün fayda, yoxsa risklər vəd edəcəyi ilə bağlı "baş sındırırlar", desək yanılmarıq. İndi ermənilərin əksəriyyəti məhz baş nazir Paşinyandan məhz bununla bağlı açıqlama eşitmək arzusundadır. Haylar məhz Zəngəzur dəhlizi məsələsinin onlar üçün nə demək olduğunu tam şəkildə başa düşməyə çalışırlar və təəssüf ki, düşmənçilik hissləri, duyğuları əsl həqiqətin nədən ibarət olduğunu görməkdə, duymaqda onlara mane olur. Paşinyan isə Ermənistandakı müxalif qüvvələrdən çəkindiyi üçün, öz hakimiyyət kürsüsünü hər şeydən çox qoruduğu üçün hələ də həqiqətdən qaçış şousu göstərmək məharətini sərgiləməkdədir.

### Müxalifətin qəzəbindən yaxa qurtarmaq, özünü və hakimiyyətini qorumaq üçün Paşinyanın yalançı şousu erməniləri çaşdırıb




Nümayəndələrin suallarını cavablandıran Paşinyan sən demə bəyan edib ki, guya "Zəngəzur dəhlizi" termini heç vaxt Ermənistan və Azərbaycan arasında razılaşdırılmış sənədlərdə yer almayıb. Onun sözlərinə, daha doğrusu, uydurmalarına görə, guya belə bir termin bundan sonra da heç olmayacaq. "Siz bu termini harada oxumusunuz? Elə bir termin yoxdur, heç vaxt olmayıb və bundan sonra da olmayacaq", deyə pafosla fikir səsləndirən Nikol Paşinyan əslində, əsl həqiqəti gizlətməyə çalışıb. Eyni ilə 44 günlük müharibə dönəmində ölkəsinin məğlubiyyətini gizlətdiyi kimi, yenə də nələri isə gizlədir və guya həmin savaş zamanı heç bir məğlubiyyətlə qarşılaşmadıqlarını yalandan iddia etdiyi kimi, yenə də yalana əl atır. Əlbəttə ki, qeyd olunduğu kimi, burada onun məqsədi ölkəsindəki müxalif qüvvələrin qəzəbindən yaxa qurtarmaq, özünü və hakimiyyətini qorumaqdır və məhz buna görə də daxili auditoriyaya hesablanan yalanlarını dövriyyəyə buraxmaqdadır. Məsələ burasındadır ki, ermənilərin böyük əksəriyyəti baş nazirlərinin dövriyyəyə buraxdığı yalanlardan, göstərdiyi şoudu çaşıblar. Bəli, sözün əsl mənasında çaşıblar. Əks halda, budan tamamilə doğru nəticə hasil edə bilərdilər.

Göründüyü kimi, erməni baş nazir daxili auditoriyaya hesablanan öz uydurmalarından o qədər "həvəslənib" ki, hətta Vaşinqtonda da imzalanan sənədlərdə də belə bir terminin olmadığı barədə yalan deməkdən də, uydurmaqdan da çəkinməyib. Paşinyona yaxın olan qüvvələr və onun dəyirmanına su tökən bəzi erməni politoloqları baş nazirin bir növ, əzələ nümayiş etdirdiyini, guya özünün prinsipial mövqeyə sahib olduğunu göstərdiyini iddia edirlər və haqlıdırlar da. Çünki elə onların özləri də yaxşı başa düşürlər ki, onun dedikləri də, mövqeyi də, nümayiş etdirməyə cəhd etdikləri də su üzərində görünən sabun köpüyü misalındadır və ən yaxın zamanda, anda partlayıb yox olmağa məhkumdur. Guya ki, rəsmi Bakının xarici siyasət diskursuna cavab verən biri kimi özünü göstərməyə çalışan erməni baş nazirin diplomatik görüşlər zamanı necə "büzüşdüyünü" haylar hamıdan yaxşı görüb və dəfələrlə müşahidə də ediblər. Buna görə də onun göstərməyə çalışdığının sadəcə olaraq, daxili auditoriyanı aldatmaq üçün həqiqətdən qaçış şousu olduğu artıq erməni cəmiyyətinin böyük əksəriyyətinə bəllidir. Sual doğuran məqam isə ondan ibarətdir ki, Paşinyanın bu qədər yalanlarının, manipulyasiyalarının şahidi olanlar özlərini niyə çaşdırıblar və çaşqınlıq içərisindədir? Məgər başa da düşmürlər ki, bu çaşqınlıq onlara məhz həmişə olduğu kimi yenə də baha başa gələcək? Başa düşmürlər ki, baş nazirlərinin göstərdiyi şou onları bərk çaşdırıb və elə konstitusiyada dəyişikliklərin edilməsindən, nəticədə də Azərbaycanla sülhdən imtina edilməsindən böyük bir yanlışlıq yoxdur və bu onların çaşmaları deməkdir?

### Həqiqətdən qaçış şousu nə qədər çox göstərilsə, sülh prosesinə bir o qədər maneçilik törədəcək

Özünün guya diplomatik uğuru kimi bəzi məqamları haylara, xüsusən də özünə müxalif qüvvələrə sırımağa çalışan Nikol Paşinyan əslində, tam səmimi və obyektiv desək, barəsində qeyd etdiyi sənədi özü imzalayıb. Bu, 44 günlük müharibəyə son qoyan həmin o 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdır. Bütün erməni cəmiyyətinin, hayların diqqətinə çatdırırıq ki, bu sazişin 9-cu bəndində açıq şəkildə göstərilir ki, "Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyi təmin edilməlidir". Eyni zamanda, axı sülh müqaviləsi üçün Ermənistanın konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının olması da qəbul edilən deyil və bunun özü də bir tələbdir. Özü də haqlı tələb.

Bir daha erməni cəmiyyətinin diqqətinə çatdırırıq ki, barəsində qeyd olunan üçtərəfli bəyanat, müharibənin, döyüşün sona çatdırılması üçün imzalanan sənədlə bağlı Azərbaycan tərəfi heç də sonradan nə isə artırmayıb və rəsmi Bakı heç zaman hansısa absurd fikirlər səsləndirməyib. Haylar özləri də yaxşı bilirlər ki, Azərbaycan məhz Naxçıvanla birbaşa əlaqəni təmin edəcək iradəyə sahibdir və Nikol Paşinyan da, ölkəsinin hakimiyyət komandası da, müxalifəti də buna mane olmaq imkanında, gücündə, hüquqi statusda deyil. Eyni zamanda, hayların başbilənləri, yaxud azca başı olanları yaxşı dərk edirlər ki, konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası olduğu halda, Azərbaycanla sülh sazişinin imzalanması mümkünsüzdür. Ümumiyyətlə, qəbul edilən deyil axı. Deməli, bu reallıqların hər biri təsdiq edir ki, Paşinyan yenə də daxili auditoriyanı aldatmaq üçün həqiqətdən qaçış şousu göstərir və onun göstərdiyinə baxıb "onunla eyni ağılda olanlar" da tamamilə başqa bir şou göstərməyə həvəslənirlər.

Beynəlxalq müstəvidə belə çoxdan bəllidir ki, hətta belə deyilməsə də, bu barədə Paşinyan təkzibedici fikirlər səsləndirsə də, ermənin baş nazir, rəsmi şəkildə Ermənistan tərəfi faktiki olaraq, "dəhliz" kimi qəbul edilən nəqliyyat marşrutunun yaradılmasına artıq çoxdan razılıq verib. Azərbaycan üçün bu dəhlizin əhəmiyyəti heç kim üçün sirr, yaxud da müəmmalı deyil. Türkiyə üçün də bu layihənin, bu dəhlizin həqiqətən də strateji əhəmiyyət kəsb etdiyi bəllidir. Barəsində qeyd olunan həmin dəhlizin məhz Cənubi Qafqazın dərinliklərinə, daha sonra Xəzər dənizinə, Mərkəzi Asiyaya və Çinə birbaşa marşrut açdığı bütün dünya ictimaiyyəti, beynəlxalq ictimaiyyət üçün də gün kimi aydındır. Bir sözlə, bütün dünya əhalisinin böyük əksəriyyəti bilir ki, həmin dəhlizin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan ondan qətiyyən imtina edəsi deyil və Paşinyan nə qədər şou, xüsusən də, nə qədər həqiqətdən qaçış şousu göstərsə belə, onun etdikləri hansısa məna kəsb edən, nəyə isə təsir edən deyil və ancaq sülh prosesinə maneçilik törətməkdən başqa bir təsiri ola bilməz. Maraqlıdır ki, guya AŞPA-da "gözəl" və "inandırıcı" şəkildə çıxış etdiyini göstərməyə çalışan Nikol Paşinyan özü öz dediklərinə inanırmı? Qətiyyən. Ona görə ki, daxili auditoriyanı aldatmaq niyyətli həqiqətdən qaçış şousu göstərdiyini özü hamıdan yaxşı bilir və bu gün ölkəsində həmin şounun təsirini də görür.

### Həqiqətdən qaçış şousu indi bütövlükdə erməni cəmiyyətini bürüyüb və haylar üçün heç də yaxşı nəticələr vəd etmir

Əsində, erməni baş nazirin bir qədər əvvəl, daha dəqiq desək, Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) çıxışı məhz hayları bir qədər "həyasızlaşdırıb" və indi də Ermənistan konstitusiyasında dəyişikliklərdən imtina etmək kimi bir yanlışlığa sürükləyib. Məsələ burasındadır ki, erməni baş nazir Nikol kimlərinsə, daha dəqiq desək, məhz öz kürsüsünə görə ən çox ehtiyat etdiyi, qorxduğu erməni müxalifətinin xoşuna gəlmək, ən azından qəzəbindən xilas olmaq üçün, özünü sığortalamaq üçün belə bir şou göstərməyi özünə rəva bilib. Amma bunu özünə rəva bildiyi zaman başa da düşməli idi ki, onun bu addımından erməni cəmiyyəti də dırnaqarası desək, "ruhlana" bilər və tamamilə yanlış xəyallar qura bilər. Bəli, elə də oldu və haylar indi də ümumiyyətlə, konstitusiyada dəyişiklik etməkdən imtina etmək kimi ağılsız bir arzunun təsiri altına düşüblər.

Haylar bu vaxta qədər başa düşməli idilər ki, barışıq və sülh, bununla bağlı imzalanmalı olan sənəd onların özlərinə lazımdır. Başa düşməli idilər ki, nə Zəngəzur dəhlizinin açılması, nə hərhansı strateji addımların atılması, nə də hansısa bir başqa məsələlərdə Azərbaycanın qarşısını Ermənistan kəsən, kəsmək iqtidarında olan, mane olmaq gücündə olan deyil və rəsmi Bakı beynəlxalq hüququn tələbləri çərçivəsində bütün məqsədlərinə nail olmaq əzmindədir. Azərbaycan artıq öz ərazilərini, 30 il müddətində erməni işğalı altında qalan ərazilərini öz gücü ilə işğaldan azad edib, geri qaytarıb və indi də həmin ərazilərdə sürətli şəkildə abadlıq-quruculuq işləri görür, "Böyük Qayıdış" proqramı çərçivəsində həmin ərazilərə geri dönüşü, vətəndaşlarının öz dədə-baba torpaqlarına qayıdışını sürətlə gerçəkləşdirir. Ümumiyyətlə, öz strategiyasını uğurla davam etdirən Azərbaycan üçün Ermənistanın hansı qərarı qəbul etməsi, nə kimi nəticə hasil etməsi qətiyyən maraqlı deyil, çünki ölkəmizin, dövlətimizin milli maraqlara xidmət edən addımları atması öz imkanları daxilindədir və biz heç kimdən, heç bir qüvvədən belə asılı deyilik. Ona görə də Ermənistanın sülh sazişi ilə bağlı fikri də, sülhə meyl edib-etməməsi də bizim üçün qətiyyən mahiyyət kəsb etmir. Sadəcə olaraq, bu vaxta qədər sülhdən dəm vuranların indi də yeni bir şou, həqiqətdən qaçış şousu göstərmələri bir qədər diqqəti cəlb edir ki, bunu da başa düşmək çətin deyil.

Məsələ burasındadır, bu günün reallığı onu göstərir ki, haylar məhz özlərini, öz ölkələrini heç olmasa bir az da olsa dirçəltmək üçün belə bir sazişə, sülh müqaviləsinin bağlanmasına maraqlı olmalı idilər. Əslində, bu baxta qədər də özlərini belə göstərirdilər və buna inanmaq da məntiqi sayılır. Çünki, hər kəs çox yaxşı bilir ki, haylar, rəsmi İrəvan bu sazişi, sülh müqaviləsini imzaladıqdan sonra hansısa imkanlar qazana bilər və səfalət içərisində olanların da xilas yolları da bundadır. Ona görə də erməni cəmiyyətindən, Ermənistan tərəfindən gözləntilər də haqlı olaraq belə olub. Lakin indi görünən tamamilə fərqlidir və belə çıxır ki, haylar bu vaxta qədər sülh bağlamaq şousu göstəriblərsə, indi də həqiqətdən qaçış şousu göstərməkdədirlər. Ən maraqlısı odur ki, bu toplum hələ də həqiqəti, reallığı, ən azından öz mənfəətini anlamaqda çətinlik çəkir və ancaq şou göstərməyə, görüntü yaratmağa maraqlıdır.

**İnam Hacıyev**

# Azad Füzulinin Şəhər Günü

***Azərbaycanın dilbər guşələrindən olan Füzuli 27 ildən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində işğaldan azad olundu. İşğalı Zəfər ilə əvəzləndi. Beş il əvvəlki Zəfərin sevinci yaşadığı məkandan asılı olmayaraq milyonlarla azərbaycanlını qürurlandırdı. Qələbədən-qələbəyə doğru addımlayan ordumuz 2020-ci il oktyabrın 17-də tariximizə daha bir qələbəni həkk etdi. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində belə deyirdi: "Bu gün Füzuli rayonunun bir sıra yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"***




1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzulinin 51 kəndi və rayon mərkəzi işğal olunmuşdu. 55 min nəfərə yaxın sakin doğma torpaqlarını tərk edərək işğal nəticəsində, öz ata-baba yurdlarından didərgin düşmüşdülər. Yaşadığı ərazilərdə insanların şəxsi mülkləri talan olunub və tarixi memarlıq abidələri məhv edilmişdi. Yağı düşmən tərəfindən Füzuli rayonundakı uzunömürlü təbiət abidələri tamamilə məhv edilib, geniş meşə massivləri ilə örtülü olan Dövlətyarlı kəndində ağaclar, bütünlüklə, qırılıb, Qoçəhmədli kənd yolu boyunca ağaclar kütləvi surətdə məhv edilmişdir. Bütün bu və ya digər hadisələr işğalçıların təcavüzkar siyasətinin məntiqi nəticəsidir. İşğal nəticəsində, 1100-dən çox Füzuli sakini şəhid olub, 113 nəfər girov götürülüb, 1450 nəfər müxtəlif dərəcəli əlil olub. Bu ağrını füzulililər kimi, bütün Azərbaycan xalqı yaşamışdır.





Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirərək Füzuli uğrunda gedən çox şiddətli döyüşlərdə qələbə qazandılar. Təbii ki, Füzuli şəhərinin azad olunması strateji mövqedə yerləşməsi baxımından əhəmiyyət kəsb edirdi. Füzuli azad olunandan sonra Şuşa istiqamətinə geniş imkanlar açılmış oldu. Ermənistan tərəfinin güclü istehkamlar qurmasına baxmayaraq, ordumuz gücü müqabilində bu istehkamları yararaq qəhrəmanlıq tarixini yazdılar. Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri, daha sonra Qubadlı azad olundu və artıq Azərbaycan Zəfərin bir addımlığında idi.

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək, tarixi ədaləti bərpa etdi. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı Sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 17 Oktyabr Füzuli Şəhəri Günüdür. Şəhər gününü bu gün bir qisim füzulili doğma yurdda qeyd edir. Füzulidə yeni bir həyat başlayıb. İşğaldan azad edilmiş Füzulidə irimiqyaslı layihələr reallaşır, mədəni abidələr bərpa olunur, abadlıq-quruculuq işləri aparılır.

Müharibə Zəfər ilə başa çatandan bir neçə gün sonra 2020-ci ilin noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuliyə səfəri zamanı Füzuli şəhərində üçrəngli Azərbaycan bayrağını qaldırdı. Həmin gün Prezident tərəfindən Füzuli-Şuşa avtomobil yolunun təməli qoyuldu və bu yol Zəfər yolu kimi tarixə həkk olundu. Artıq Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıb. 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə Beynəlxalq Hava Limanının tikintisi barədə Sərəncam verdi. Gələcək hava limanının təməlqoyma mərasimi həmin ilin yanvar ayının 14-də baş tutdu. Hava limanının uçuş zolağının inşasının ilin sonuna kimi tamamlanması planlaşdırılsa da, artıq avqust ayında uçuş-enmə zolağı hazır idi. "Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib", - deyən dövlət başçısı bildirib ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir.

Hər zaman Azərbaycanın yanında olan qardaş Türkiyə Vətən müharibəsi başlayan ilk saatlardan sona qədər ölkəmizə siyasi dəstəyini göstərdi. Qardaş ölkənin Prezidentinin təyyarə ilə məhz Füzuli Beynəlxalq Hava Limanına enməsi və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan İlə hava limanının rəsmi açılışını bildirən qırmızı lenti kəsmələri dünyaya verilən daha bir qardaşlıq, birlik, həmrəylik mesajı oldu.

Qısa bir zaman məsafəsində dövlət başçısı tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi uğurla həyata keçirildi. Füzuli şəhərində dövlət başçısının iştirakı ilə Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, Dövlətyarlı kəndində "Ağıllı kənd"inin, şəhərdə salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməllərinin qoyulması və s. geniş miqyaslı layihələrin qısa bir zamanda reallaşmasına söykənirdi. Vurğulayaq ki, "Füzuli" yarımstansiyası işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib.

Bütün bu və ya digər görülən işlərlə yanaşı, dövlətimizin başçısı tərəfindən rayonun Cuvarlı, Qoçəhmədli kəndlərinin, Füzuli şəhərində idman, eləcə də ikinci və üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının, inzibati binanın təməli qoyulub.

Böyük Qayıdış Proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaqdır. Ən əsası isə onu qeyd edək ki, Füzuli şəhərinin Baş planı hazırlanıb. Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur.

Türk dövlətləri də öz töhfəsini verməkdədir. Belə ki, Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəb, Qazaxıstanın hədiyyəsi - Kurmanqazı adına yaradıcılıq mərkəzi artıq istifadəyə verilib. Bu addımlar Türk dünyasında həmrəyliyin parlaq nümunəsidir. Qısa bir zamanda Füzuli şəhərində reallaşan infrastruktur layihələri, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha nümayiş etdirir.

Füzuli Şəhəri Gününün təsis edilməsi bu qələbənin həm də milli-mənəvi rəmzlərindən biridir.

Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli rayonunda irimiqyaslı yenidənqurma işləri həyata keçirilir. Bu sıraya şəhərsalma və Baş planın təsdiqlənməsi, "ağıllı şəhər" konsepsiyası, yol, elektrik, qaz, su-kanalizasiya, rabitə infrastrukturu, məktəb, xəstəxana və sosial obyektlərin tikintisi, Füzuli Beynəlxalq Hava Limanı və strateji yolların inşası daxildir. Bu layihələr Füzulini regional inkişaf mərkəzinə çevirir. Böyük Qayıdış Proqramı çərçivəsində Füzuli şəhərinə köç prosesi başlanıb, sosial infrastruktur və yaşayış şəraiti təmin edilib.

Beləliklə, Füzuli Şəhəri Günü tarixi ədalətin bərpasını, dövlətin iradəsini və gücünü, ordumuzun qəhrəmanlığını, milli-mənəvi dəyərlərimizin dirçəlişinin təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Kitab uşağı maraqlandırmalı, yoxsa qorxutmamalıdır?

## Uşaqların üzərinə yüklənən təhsil: Dolu siniflər, ağır dərsliklər və itirilən uşaqlıq

***Dünyada təhsil sistemləri durmadan dəyişir. Müasir texnologiyalar, yeni metodikalar və rəqəmsal resurslar sayəsində öyrənmə prosesi asanlaşmalı idi. Amma təəssüf ki, bizdə təhsildə aparılan dəyişikliklər çox vaxt uşağın rifahına deyil, yalnız formal nəticələrə yönəlir. Bu gün Azərbaycanda həm müəllim, həm valideyn, həm də şagird eyni sualı düşünür: "Niyə öyrənmək get-gedə daha çətin, daha yorucu və daha anlaşılmaz olur?"***

Cavab sadədir - sistem uşağın üzərinə çox yük qoyur, amma bu yük bilik deyil, təzyiq yüküdür.



### Siniflər doludur, müəllimlər çaşqın, uşaqlar yorğun

Bir çox məktəblərdə siniflərdə 30-dan 45-ə qədər şagird təhsil alır. Bu, pedaqoji baxımdan nə qədər səmərəsiz olduğunu göstərmək üçün böyük araşdırma lazım deyil. Hər bir şagirdin fərqli düşüncə tərzi, anlama sürəti və emosional reaksiyası var. Müəllim isə bu qədər uşaq arasında fərdi yanaşma göstərə bilmir. 45 dəqiqəlik dərs müddətində müəllim ən yaxşı halda 10-12 uşağın cavabını dinləyə bilər. Qalan 30 nəfər isə ya passiv qalır, ya da mövzunu tam qavramadan növbəti dərsə keçir. Bu da dərsin keyfiyyətini aşağı salır, uşaqlarda öyrənməyə qarşı maraq itkisinə və zəif biliyə səbəb olur. Belə sinifdə müəllim nə qədər bacarıqlı olsa da, dərsin tədrisi "bilik ötürməkdən" çox "vaxt bitirmək" xarakteri daşıyır.



### Dərsliklər uşaqların deyil, alimlərin dili ilə yazılıb

Təhsilin başqa bir ağrılı nöqtəsi - dərsliklərin dili və izah tərzidir. Dərsliklər çox vaxt akademik və quru üslubdadır. Mövzular uşağın yaşına, düşüncə səviyyəsinə uyğun şəkildə deyil, elmi terminologiya ilə yüklənmiş şəkildə təqdim olunur. Valideynlər çox vaxt etiraf edir: "Biz belə oxumamışıq, uşağın dərsini özümüz də anlamırıq." Əgər böyüklər başa düşmürsə, uşaq necə başa düşsün?

Bu səbəbdən bir çox valideynlər əlavə kurslar və repetitorlara müraciət edir. Bu da həm ailənin maddi yükünü artırır, həm də uşağın istirahət vaxtını əlindən alır.

### Təzyiq altında öyrənən uşaq bilikli yox, qorxulu böyüyür

Uşaqlara bu qədər dərs yükü, tapşırıq, imtahan təzyiqi altında "öyrənməyi" öyrətmək doğru deyil. Uşaqlar artıq dərsdən qorxurlar. Hər gün ev tapşırıqları, testlər, imtahanlar arasında boğulan uşaq öyrənmənin sevincini deyil, qorxusunu yaşayır.

Valideynlər və müəllimlər bəzən bilmədən uşaqları "balaca alimlər" kimi yetişdirmək istəyir, amma unudurlar ki, beyni yüklənmiş uşaq oxumağı sevmir. O, sadəcə məcbur olur. Təzyiq altında öyrənilən bilik isə qalıcı olmur.

### Müəllim - sistemin ən çox sıxılan halqası

Müəllimlər də bu sistemin içində sıxılır. Dolu siniflər, ağır proqram, daim dəyişən kurikulum, inzibati hesabatlar və valideyn təzyiqləri arasında müəllim də yorulur. Müəllim həm psixoloq, həm tərbiyəçi, həm də "baza nəticəsi təmin edən" şəxsə çevrilib. Halbuki müəllim yaradıcı olmalı, uşağa motivasiya verməli, onu öyrənməyə həvəsləndirməlidir. Əgər müəllim motivasiyasını itirirsə, uşağın maraqlı olması da mümkünsüz olur.

### Təhsil yalnız qiymət deyil - həyat bacarığıdır

Təhsil sistemimiz çox vaxt "qiymət mərkəzli" qurulub. Uşaq "neçə bal aldı?", "imtahanda neçə faiz topladı?" kimi suallarla ölçülür.

Halbuki əsas sual bu olmalıdır:

"Uşaq öyrəndiyini həyatda tətbiq edə bilir mi?"

Uşaq əzbərləyir, amma dərk etmir.

Testdə cavab yazır, amma həyatla əlaqə qura bilmir.

Bu, təhsil deyil - bu, mexaniki yarışdır.

Nə etmək lazımdır?

Təhsil sistemini uşağın ehtiyacına uyğunlaşdırmaq üçün ciddi və mərhələli addımlar atılmalıdır:

1. Siniflərdə şagird sayı azaldılmalıdır.

Hər sinif maksimum 20-25 nəfərlə məhdudlaşdırılmalıdır. Uşaqla fərdi işləmək üçün müəllimə zaman verilməlidir.

2. Dərs müddətləri və proqram balansı yenilənməlidir.

45 dəqiqəlik dərs bütün fənlər üçün uyğun deyil. İntensiv fənlərdə fasilə, oyunla və tətbiqlə öyrənmə sisteminə keçilməlidir.

3. Dərsliklər yenidən yazılmalıdır.

Sadə, anlaşılan, rəngli izahlar, praktik nümunələr və uşağın yaşına uyğun dil əsas götürülməlidir.

Kitab uşağı maraqlandırmalı, yoxsa qorxutmamalıdır?

4. Müəllimlər üçün davamlı inkişaf proqramları olmalıdır.

Müasir tədris metodları, fərdi öyrənmə texnikaları, uşağın psixoloji inkişafını nəzərə alan yanaşmalar mütləq tətbiq edilməlidir.

5. Uşağın psixoloji rifahı prioritet olmalıdır.

Məktəblərdə psixoloq və sosial pedaqoqlar daha aktiv rol almalı, uşaqların stres, qorxu və təzyiq vəziyyətləri izlənilməlidir.

Uşaqların uşaqlığını geri qaytarılmalıdır

Uşaqlıq - öyrənmənin, marağın və xəyalın ən saf dövrüdür.

Biz bu dövrü "imtahan nəticələri" və "yüksək bal" yarışında itiririk.

Təhsil uşağı formalaşdırmalıdır, sıxmamalıdır. Əgər bir uşaq məktəbə sevinərək gedirsə, deməli sistem doğrudur. Əgər o, səhər məktəbə qorxaraq gedirsə, biz nəyisə səhv etmişik. Gəlin uşaqlara "oxumağı sevdirməyi" öyrədək, sadəcə "imtahan keçməyi" yox. Çünki sabahın savadlı, azad və düşünən insanı - bu günün rahat və xoşbəxt uşağıdır.

***Vüqar Vəliyev***

---

*TERAPEVT AÇIQLADI*

# Erkən ölüm riskini artıran əsas amillər BƏLLİ OLDU

Müasir dövrdə insanların həyat keyfiyyəti artsa da, erkən ölüm hallarının sayı hələ də az deyil. Həyat tərzi, ətraf mühit, genetik faktorlar və psixoloji gərginlik kimi bir çox amil insanın sağlamlığına və ömrünün uzunluğuna birbaşa təsir edir. Bəs, erkən ölüm riskini artıran əsas amillər hansılardır? Genetik meyillilik nə dərəcədə təsir edir? Yaşayış şəraitini yaxşılaşdırmaqla riski azaltmaq mümkündürmü?

Məsələ ilə bağlı terapevt Aynurə Rzayeva SİA-ya açıqlamasında bildirib ki, vaxtsız ölüm riskini artıran əsas amillər bir neçə qrupda toplanır.

Onun sözlərinə görə, bunlara ürək-damar xəstəlikləri, şəkərli diabet, yüksək təzyiq, piylənmə, xərçəng növləri, siqaret və alkoqol istifadəsi, fiziki hərəkətsizlik və psixoloji stress daxildir: "Bunların hər biri orqanizmin funksiyalarını zəiflədərək həyat müddətini qısalda bilər. Eyni zamanda, yol-nəqliyyat qəzaları, bəzi infeksiyalar və ətraf mühitin çirklənməsi də vaxtsız ölümlərin səbəbləri sırasındadır. Genetik meyillilik də mühüm rol oynayır. Məsələn, ailəsində infarkt, insult, diabet və ya onkoloji xəstəliklər olan insanlarda bu problemlərlə qarşılaşmaq riski digərlərinə nisbətən daha yüksək olur. Amma bu o demək deyil ki, bu insanlar mütləq bu xəstəliklərə tutulacaqlar. Genetik risk olsa belə, düzgün həyat tərzi və mütəmadi tibbi yoxlamalarla bu riski minimuma endirmək mümkündür.



Yaşayış şəraitinin yaxşılaşdırılması da çox önəmlidir. Təmiz su, sağlam qidalanma imkanı, havanın keyfiyyəti, gigiyena qaydalarına əməl olunması, tibbi xidmətə əlçatanlıq və psixoloji rifah - bunların hamısı insan sağlamlığına birbaşa təsir edir. Maddi və sosial durum yaxşılaşdıqca insanlar həm sağlamlığını qorumağa daha çox diqqət yetirir, həm də vaxtında həkimə müraciət edə bilir.

Sağlam həyat tərzi üçün isə ilk növbədə düzgün və balanslı qidalanma, gündəlik fiziki aktivlik (ən azı 30 dəqiqə piyada gəzinti belə kifayət edə bilər), kifayət qədər yuxu, zərərli vərdişlərdən uzaq durmaq (siqaret, alkoqol), stressin idarə olunması və profilaktik müayinələrə vaxtında getmək vacibdir. Hər bir insan öz həyat tərzinə və sağlamlıq vəziyyətinə uyğun plan qurmalı və orqanizmini tanımalıdır. Unutmaq olmaz ki, sağlamlıq yalnız xəstəliklərin olmaması deyil, həm də fiziki, psixoloji və sosial rifah halıdır. Ona görə də hər sahədə balanslı və diqqətli olmaq, həm bədəni, həm də zehni qayğıda saxlamaq vaxtsız ölüm riskini azaltmağa kömək edir".

***Arzu Qurbanlı***

# Əməkdaşlığı gücləndirmək üçün mühüm platforma

## Prezident İlham Əliyev: "Bu mötəbər tədbir regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir"




***Dünyanın ən inkişaf etmiş ölkələri sırasında olan Azərbaycan öz gözəlliyinə, inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzindədir. Ölkəmiz son illər ardıcıl olaraq çox nüfuzlu beynəlxalq tədbirlərə, toplantılara ev sahibliyi edir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin dövlət maraqlarımıza uyğun formada keçirilməsi də təqdirəlayiqdir.***

Bu gün artıq Azərbaycanın işğaldan azad olunan Şərqi Zəngəzur və Qarabağ da beynəlxalq tədbirlər məkanına çevrilib. Oktyabrın 15-də Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib. Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına Azərbaycan Prezidenti İlham Əliyevin ünvanladığı müraciətində bildirdiyi kimi, Azərbaycanda üçüncü dəfə təşkil olunan və artıq ənənə halını almış bu tədbir şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm platforma rolunu oynayır.

Forum "İqlimədavamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunda keçirilib. Tədbir Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı ("UN-Habitat") ilə tərəfdaşlığı çərçivəsində reallaşıb. Tədbir şəhərsalma sahəsində aktual çağırışların və imkanların müzakirəsi üzrə yerli və beynəlxalq ekspertlər üçün vahid platforma rolunu oynayır. Forumda münaqişə və təbii fəlakətlərdən sonrakı dayanıqlı bərpa prosesləri, mənzil təminatı və layiqli yaşayış məskənləri, dayanıqlı və sağlam şəhərlər, ekoloji və enerji üzrə effektiv təcrübələr, rəqəmsallaşma və innovativ yanaşmalar, Davamlı İnkişaf Məqsədləri və Yeni Şəhər Gündəliyi, regional və beynəlxalq tərəfdaşlıqların inkişafı kimi mövzularda müzakirələr aparılır. Forum çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, tətbiq olunan müasir şəhərsalma standartları və innovativ texnologiyalar, Azərbaycanın postmünaqişə dövründə əldə etdiyi nailiyyətlər, həmçinin müxtəlif ölkələrin qabaqcıl təcrübələrinə dair təqdimatlar edilir. Eyni zamanda, şəhərsalma üzrə tədqiqatlar aparan nüfuzlu akademik heyətin iştirakı ilə təşkil olunan müzakirələr bu sahədə bilik mübadiləsini gücləndirəcək, elmə əsaslanan dayanıqlı qərarların qəbuluna təkan verəcək.

### "REGİONUN DAYANIQLI İNKİŞAFINA VƏ ÜMUMİLİKDƏ QLOBAL URBANİZASİYA MƏQSƏDLƏRİNƏ MÜHÜM TÖHFƏ VERƏCƏK"

III Azərbaycan Milli Şəhərsalma Forumunun qlobal şəhərsalma gündəliyinin həyata keçirilməsi və dayanıqlı şəhərlərin qurulması istiqamətində mühüm çoxtərəfli əməkdaşlıq fürsəti olması təkcə Azərbaycan üçün deyil, bütün region və dünya üçün mühüm əhəmiyyət daşıyır. 2026-cı ildə ölkəmiz Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına ev sahibliyi edəcəkdir. 2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. "Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcəkdir", - deyə Prezident bildirib: "Bugünkü Forum 13-cü Ümumdünya Şəhərsalma Forumuna gedən yolda mühüm mərhələdir. Əminəm ki, burada aparılan müzakirələr şəhərlərin planlaşdırılması, bərpası və davamlı inkişafı sahəsində strateji təşəbbüslərin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edəcək, gələcək nəsillər üçün daha yaşıl, inklüziv və firavan yaşayış mühitinin formalaşdırılmasına xidmət edəcəkdir".

Azərbaycan Prezidenti Forum iştirakçılarına müraciətində bildirib ki, BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən Milli Şəhərsalma Forumları Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür, "Builki Forumda 60-dan çox ölkədən 200-dən artıq xarici qonağın, ümumilikdə 400-ə yaxın nümayəndənin iştirakı həm ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir"

Dünyanın müxtəlif ölkələrindən iştirakçıların nın qatıldığı Milli Şəhərsalma Forumu dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi üçün geniş imkanlar yaradır və Azərbaycanın urbanizasiya siyasətini beynəlxalq standartlara uyğunlaşdırmaq təşəbbüsü baxımından əhəmiyyət daşıyır. "Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir", - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində Bakıdan Qarabağadək, ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirir. Bu transformasiya Azərbaycanın dayanıqlı inkişaf, innovativ şəhərsalma və inklüziv böyüməyə olan sadiqliyini əks etdirir.

### "İŞĞALDAN AZAD OLUNMUŞ 6 ŞƏHƏR, 2 QƏSƏBƏ VƏ 20 KƏNDƏ İNSANLAR GERİ QAYIDARAQ MƏSKUNLAŞIB"

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika 44 günlük Vətən müharibəsində döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatınısürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünügöstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. "Ötən otuz il ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində şəhər və kəndlər tamamilə viran edilmiş, tarixi-mədəni irsimiz dağıdılmış, torpaqlar geniş miqyasda mina çirklənməsinə məruz qalmış, bir milyondan artıq azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdır. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər sayəsində həmin ərazilərin işğaldan azad edilməsi ölkəmiz üçün bərpa, yenidənqurma və dirçəliş dövrünün əsasını qoydu", - bildirən dövlət başçımız qeyd edib ki, bu gün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur: "Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin Baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb".

### "BU ŞƏHƏR BU GÜN SÜLHÜN, BƏRPANIN VƏ DİRÇƏLİŞİN RƏMZİDİR"

Azərbaycanın dilbər guşəsi Qarabağımız və Şərqi Zəngəzur müasir dünyamızda yeni dövrünü yaşayır. Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Bu gün Şuşamızda, Zəngilanda, Laçında və digərərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Tezliklə işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevrilir. Müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Burada son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir."Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun Xankəndi şəhərində keçirilməsi xüsusi məna daşıyır. Uzun illər işğal altında qalmış bu şəhər bu gün sülhün, bərpanın və dirçəlişin rəmzidir", - deyən Prezident bildirib ki, Xankəndidə icra olunan infrastruktur layihələri şəhərin müasir, ağıllı və innovativ şəhər konsepsiyasına uyğun inkişafını təmin edir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir". İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. "Yaşıl enerji" zonası elan edilmiş və 10 min meqavat yaşıl enerji üzrə texniki potensiala malik Qarabağ və Şərqi Zəngəzurda Günəş və külək enerjisi layihələri sürətlə həyata keçirilir. Burada "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur", - fikirləri Prezident İlham Əliyevin müraciətində yer alıb.

İşğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

Qlobal enerji istehlakının 75 faizdən, istixana qazı emissiyalarının 70 faizdən çoxu şəhərlərdə formalaşır. Bununla belə, iqlim dəyişikliyinin təsirləri də ən çox şəhərlərdə hiss olunur - temperaturun artmasından və dəniz səviyyəsinin yüksəlməsindən tutmuş daşqınlara və su qıtlığına qədər. Buna baxmayaraq, şəhərlərin ehtiyacları daxili və qlobal iqlim maliyyələşməsində kifayət qədər təmsil olunmur.

Azərbaycanda keçirilən Milli Şəhərsalma forumları dialoq, əməkdaşlıq və təcrübə mübadiləsi üçün mühüm platforma kimi çıxış edir. 2022-ci ildəki ilk forum hökumət nümayəndələri, ekspertlər və beynəlxalq tərəfdaşları bir araya gətirərək, milli şəhərsalma çərçivəsini formalaşdırmağa imkan verdi. Bu təməlin üzərində, 2023-cü ildə keçirilən ikinci forum əməkdaşlıq mühitini daha da gücləndirib və innovasiyaların təşviq edilməsi ilə yanaşı, Yeni Şəhər Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu təmin edib.

Son üç il ərzində Milli Şəhərsalma Forumu sadəcə adi tədbir deyil, davamlı şəhərsalma sahəsində dialoq, əməkdaşlıq və ortaq irəliləyiş üçün institusional bir platformaya çevrilib. "Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır", - deyə Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***

***Həmişə belə olub ki, bir kitabı oxuyub qurtardıqdan sonra ikinci kitabı əlimizə almışıq. Hələ elə olub ki, günlərlə oxuduğumuz kitabın təsirindən ayrıla bilməmişik ki, növbəti kitaba başlayaq. Müasir dövrdə kitabla sosial şəbəkələri qarşı-qarşıya qoyarkən belə bir suala cavab axtarıram: görəsən iki-üç kitabı bir arada oxuya bilmədiyimiz təqdirdə, iki-üç, hətta bundan da artıq sosial şəbəkədən bir anda necə istifadə edirik? Həqiqətən çox maraqlıdır. Söhbətimizə kitablarla başlayaq...***

# Kitablar və sosial şəbəkələr...



## Biz və kitablar

Kitab... Deyərdim ki, dünyada yaradılmış ən dəyərli vasitədir. Kitab insanın ən yaxın dostu, ömrünün bəzəyidir. Kitab sirdaşdır, hər an pıçıltılarını dinləyən, sənə düzgün yol göstərən əsl dost. Kitab vaxtdır, bəzən ilişib qalan saatları sürətlə irəliyə doğru aparan, günün haradan gəlib haraya getdiyindən insanı bixəbər edən vasitədir.

Hər kəsin yanında olub, bir gün səndən uzaqlaşdığı təqdirdə kitab səninlə qalan, dərd-sərinə şərik olan vasitədir. Kitab milyonlarla insanla tanışlıqdır. Minlərlə insan taleyi ilə tanışlıqdır. Düz yolun göstəricisi, əyri yolun düşmənidir.

Kitab xarakterdir. İnsan xarakterinin düzgün formalaşmasında tərbiyəedicidir. Nəyi necə etməyi göstərən, nəyi harada danışmağı öyrədən müəllimdir. Əməyi, zəhməti misilsiz olan müəllim. Haqqı ödənilə bilməyən öyrədicidir.






Kitab yol yoldaşıdır. Hər an yanındadır. Dünyanın harasında olsan, hansı səbəbdən olsan yanında tək olandır. Səni tək qoymayan, darıxmaqdan uzaq saxlayan, münasib olmayan dostluqlardan çəkindirən yoldaşdır. Harada gəldi dərdini sonadək dinləyən, yaralarına məlhəm olan yol yoldaşıdır.

Kitab taledir. Mənim, sənin, hamımızın taleyidir. Bir-birimizə sirrimizi-sözümüzü deməyimiz halda, kitab bizləri bir-birimizin taleləri ilə tanış edən vasitədir. Kiminsə taleyinə acıdığımız, kiminsə taleyinə sevindiyimiz, pisi pis, yaxşını yaxşı kimi tanıtdıran, öyrədəndir.

Kitab xatirədir. Uşaqlıqdan gəncliyə, gənclikdən ahıllığa ərməğan olan xatirələr toplusudur. Bir dəfə səhifələrində gözlərin gəzəndən sonra ikinci dəfə əlinə aldığında səni gənclikdən uşaqlığa, ahıllıqdan gəncliyə aparan xatirələrdir.

Elə bütün bu səbəblərdən də kitab hər birimiz üçün dəyərlidir. Çünki o bizim də dostumuz, yoldaşımız, sirdaşımız, yol yoldaşımız, taleyimiz, xatirələrimiz olub. Kimsəyə deyə bilmədiyimiz sözümüzü dinləyənimiz olub. Qəhrəmanlarına öz dərd-sərimizi də qarışdırıb göz yaşını axıtdığımız səhifələrdir. Gecəni sübhədək ayrıla bilmədiyimiz yuxumuzdur. Dünyanın ən şirin neməti olan yuxunu illərlə qurban verdiyimiz varlıqdır. Qəhrəmanları həyat idealımıza çevrilən, bizi peşəyə, sənətə, həyata yönəldən varlıq...



Deyərdim ki, kitab ana laylasının davamıdır. Körpə ikən ana laylasıyla dinclik, sakitlik, məlhəm tapdığımız halda, ömrümüzün sonrakı çağlarında bu laylaları yegənə əvəz edə bilən kitablardır. Ana laylalarına qulaq kəsib ağlamamışıq, bir də kitablarla varlığımız-yoxluğumuz hiss olunmayıb. Çəkilmişik bir guşəyə, burada onunla ikinci ana laylası ilə baş-başa qalmışıq. Ruhumuza qida olub kitablar, ana südü tək qidamız olub. Kitab oxuyanlar xatırlayar, hansısa bir kitab səni özündən alıb elə aparıb ki, gün ərzində aclıq hissi belə duymamısan. Belə isə ən gözəl qidadır kitablar.

Kitab arzudur, bu arzuya qurulan xəyaldır. Gələcəyin, sabahındır. Qəhrəmanlarının səni səslədiyi həyat yoludur. Onlara bənzəyən həyat yolunu qurmaqda səni ruhlandıran, yolgöstərəndir. Mübarizlikdir kitab. Həyatla, haqqınla, insanlarla mübarizədir. Bütün bunları necə etməyi öyrədəndir.

Kitab bir filmdir, oxudunmu, sanki bir filmə baxdın, bir hadisənin içərisində oldun, onun qəhrəmanları ilə birgə yaşadın. Kitab bir mahnı, bir şeirdir, necə ki, bir musiqi, bir parça şeir səni səndən alıb aparır, kitab da elədir. Saatlarla gedirsən, bəzən keçmişə, bəzənsə gələcəyə...

Kitablardan bir xeyli danışdıq, bir qədər də sosial şəbəkələrdən danışaq.

## Sosial şəbəkələr və biz

Biz istəsək də, istəməsək də, həyatımızda sosial şəbəkələr var və olmalıydı da. Bunu əksər insanlar müasir dövrlə, texnologiyanın inkişafı ilə əlaqələndirirlər. Belə fikirdə olanlar da var ki, həyatımıza sosial şəbəkələr daxil edilib, onların olması məsləhət bilinib. Bu dünyanın işlərindən hələ ki, çoxlarımız bixəbərik.



Sosial şəbəkələrin yaxşı tərəfləri çoxdur. Onlar öncə məlumatlığımız, dünyada baş verən hadisələrdən bir anda xəbərdar olmağımızdır. İnformasiyanı bir-birimizə ötürməyimiz üçün əlverişli vasitədir. Müasir dövrdə informasiya bolluğudur.

Sosial şəbəkələr arxivdir. Düzdür, ənənəvi arxivlərimiz qədər etibarlı olmasa da, bir andaca bütövlükdə silinə biləcəyini hamımız yaxşı bilsək də, lakin o hadisə nə vaxtsa baş verənədək arxivdir. Bu da bir çox iş adamlarının necə deyərlər, işinə yarayır.

Sosial şəbəkələr kitabdır. Əldə edə bilmədiyimiz və oxumaq istədiyimiz kitabları, yeni nəşrləri buradan asanlıqla tapıb oxumaq imkanıdır.

Sosial şəbəkələr hər birimizin reklamıdır. Orada hər kəs öz işi, peşəsi, bacarığı ilə bağlı reklamlarını aparır.

Sosial şəbəkələr bir-birimizin ta açılmayan qapısıdır. Buradan bir-birimizin evində qonaq olur, ağsaqqal-ağbirçəyimizi, xəstəmizi yoluxur, görüşür, danışırıq. Ta vaxt ayırıb hər hansı qohum-qonşuya getməyə ehtiyac qalmır.

Sosial şəbəkələr insanların bir-birinə göstərmək istədiklərini reallaşdıran, eyni zamanda bir-birilərinə deyəcəkləri sözləri ünvanına çatdıran vasitədir.

## Bu barədə düşünək!

Belə isə, yaxşı, əksəriyyətin dediyi olsun, müasir dövrdür, internet əsridir, sosial şəbəkələr də olmalıdır. Amma nə qədər axı? Yağışdan sonra çoxalan göbələklər kimi, hər gün artan sosial şəbəkələr axı unudub bir kənara tulladığımız, kitabxanalarda toz basmaqda olan, evlərimizdən yoxa çıxan kitabların verdiyini vermir övladlarımıza. Çünki sosial şəbəkələrdən düzgün istifadə etmirik. Əlimizdəki telefonla bir anda bir neçə sosial şəbəkədə oluruq ki, bu, ən birinci sağlamlığımızı təhlükə altına alır. Daha sonra isə vaxtımızı və sözün ifadə edə bilmədiyi çox şeyləri.

Sosial şəbəkələr ailələrimizi dağıdır, sevənləri bir-birindən ayırır, övladlarımızın əxlaqına mənfi təsir göstərir, milli-mənəvi dəyərlərimizi silir, tərbiyə amilinin əksinə işləyir. Bütün bunları da bilməyən yoxdur. Hamı yaxşı bilir ki, sosial şəbəkələrdə nələr yayınlanır.

Bizlər isə azyaşlı uşaqlarımızın əlinə kitab vermək əvəzinə, smartfonları verir, onların bir guşəyə çəkilib saatlarla ortalığa çıxmamasına göz yumuruq. Hələ uşaqlarımız bir yana, özümüzdən deyək. Əlimizdə telefon sosial şəbəkələrdi ki, gəzirik. Oradan bir xəbər oxuyuruq, buradan bir nəfər dostumuza, rəfiqəmizə yazırıq, o birisində bir videoya baxırıq, daha o birindən şəkil paylaşırıq və sair. Saatlar ötüb keçir, çıxa bilmirik buradan. Təmiz hava almağı da, işdən sonra uşaqlarımıza, ailəmizə vaxt ayırmağı da qurban vermişik sosial şəbəkələrə. Bu sosial şəbəkələr isə bu gün təqdir etdiyimiz texnologiyanın uğurudur, sabahsa bataqlıqdır bizim üçün. Nə qədər çalışsaq da çıxa bilməyəcəyimiz bataqlıq...

Axı bir anda bir neçə sosial şəbəkəni necə idarə etmək olar? Bu, insana nə verə bilər? Hər yerdən bir az, yarımçıq informasiya alma, yarımçıq film izləmə, mahnı dinləmə, kitab oxuma və sair. Dəfələrlə bu yarımçıqlığın şahidi olmuşuq. Söhbət əsnasında sürətli baxıb keçmələr səbəbindən ən yaxın rəfiqənin, dostunun, yaxın qohumunun sənin yazdıqlarına, təkliflərinə bağlı informasiyanı almamasının və yaxud paylaşılan bir xəbərin sadəcə səhlövhəsini oxuyub, hadisənin mahiyyətindən bixəbər qalmasının şahidi olmuşuq. Bəs belə sürətlə keçmək nə qazandıracaq bizə? Əlbəttə, heç nə. Sürət zamanı deyib dururuq, lakin bu sürətin bizi durğunluğa aparmasını əsla düşünmürük.

Yenə də yazının əvvəlində dediyim fikrə gəlmək istəyirəm. Biz iki kitabı bir arada oxuya bilmədiyimiz halda, neçə-neçə sosial şəbəkələri bir anda necə oxuyuruq, görürük, dərk edirik, yadımızda saxlayırıq? Bu suallar bəlkə də bu yazını oxuyanlarda ikrah hissi doğuracaq. Lakin bu sualların cavabını ümidvaram ki, bir neçə ildən sonra əksəriyyət insan axtaracaq. Lakin onda artıq gec olacaq. Çünki hər mənada itirdiklərimiz qazandıqlarımızdan dəfələrlə çox olacaq.

Kitablar və sosial şəbəkələr... Hansı faydalıdır, hansı məsləhətlidir. Təbii ki, ikisi də. Lakin hər ikisindən düzgün istifadə etməklə nəyə isə nail olmaq olar. Düzgün istifadə isə düzgün vaxt ayırmaqdan və düzgün seçimdən başlayır. İstər hansı kitabı seçmək, istər hansı sosial şəbəkədə nəyə baxmaq, nəyi oxumaq olsun, faydalılar uğur gətirə bilər.

***Mətanət Məmmədova***

# "Boz kardinal"ın ifşası yeni detalları üzə çıxardı




***Bu gün Azərbaycan regional və beynəlxalq müstəvidə aparıcı dövlətlərdən bir olaraq tanınır və qəbul edilir. Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin reallığa çevrilməsi ilə bölgənin inkişafına, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr vermiş olur. Uğurların, böyük qələbələrin yüksək zirvəsi isə 44 günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsidir. Bu hərbi zəfər, parlaq qələbə Azərbaycanın gücünə güc qatdı, nüfuzunu daha da artırdı. Təbii ki, qazanılan qələbələr, əldə olunan nailiyyətlər dostları sevindirir, düşmənlərin bağrını yarır. Təəssüflər olsun ki, ikincilərin sırasında sapı özümüzdən olan baltalar da yer alırlar. Hansı ki, onların böyük əksəriyyəti ölkəmizdə yaradılan imkanlardan geninə-boluna bəhrələniblər, özlərinə və ailələrinə göz qamaşdıran şəraitlər yaradıblar.***

Qərəzli və düşmənçilik mövqeyindən çıxış edənlərin arasında dağıdıcı müxalifətin, xüsusilə də AXCP sədri Əli Kərimlinin, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərin, Arif Hacılının, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin və digərlərinin olması anlaşılandır. Nədən ki, siyasətə gəldikləri gündən onlar üzərlərinə mühüm dağıdıcı öhdəliklər götürüblər. Daim fəaliyyətlərini öhdəliklərinin yerinə yetirilməsinə səfərbər edirlər. Ancaq dağıdıcı ünsürlərin sırasında yüksək dövlət vəzifəsi tutmuş şəxslərin olması müəyyən qədər təəccüb doğurur. Bunun səbəbini araşdırarkən məlum olur ki, əslində, onlar tarixin arxivinə atılmaları ilə barışmır və ziyanverici rolunda çıxış etməklə dövlətin sütunlarına zərər vurmağa, imicini ləkələməyə çalışırlar. Bir qədər də araşdırmaları dərinləşdirdikdə daha ilginc faktlar üzə çıxır. Aydınlaşır ki, xəyanət yolu tutan keçmiş vəzifə mənsublarının bəzisi hansısa xarici ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir.

Zamanında Fərhad Əliyev, Əli İnsanov böyük iddialara düşdüklərindən xarici və daxili qüvvələrlə iş birliyinə getmişdilər. Ancaq onların niyyətləri baş tutmadı və 2005-ci ilin oktyabrında ifşa olunaraq qaninvericiliyin tələbinə uyğun olaraq cəzalarını aldılar. Bu gün yaşananlar, xüsusilə də Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın keçmiş prezidenti, bəzi KİV-lərdə "Boz kardinal" kimi təqdim olunan Ramiz Mehdiyevin həbs olunması göstərdi ki, iştahaları və iddiaları böyük olan keçmiş məmurların siyahısı Fərhad Əliyev və Əli İnsanovla bitmir. Ramiz Mehdiyev kimilər yaşlarının ahıl vaxtı olmasına baxmayaraq yenə də böyük iddialarından əl çəkmirlər.

Çoxları deyə bilər ki, Ramiz Mehdiyev qocalıb, yerişini itirdiyi kimi danışığını və hərəkətlərini də tənzimləməyi bacarmır. Ancaq unutmaq olmaz ki, yaşlandıqca insan daha səbirli və düşüncəli olur. Digər tərəfdən R.Mehdiyev az qala ömrünün yarıdan çoxunu vəzifələrdə keçirib, idarəetmədə çalışıb, bu baxımından onun yaşlanması ilə hərəkətlərinə nəzarət edə bilməməsi versiyası inandırıcı deyil. Əminliklə demək olar ki, Ramiz Mehdiyev uzun illər öncədən hansısa kənar qüvvələrin, xüsusi xidmət orqanlarının əməkdaşı olub. Sadəcə, vəzifələrdə olduğu üçün dövlətlərarası əlaqələrlə bağlı mövqeyi, atdığı addımları gözlənilən hal kimi qiymətləndirilib. Elə təəssürat yaranıb ki, bu adam dövlətlərarası münasibətlərin qurulması və inkişaf etdirilməsi üçün çalışır. Lakin sular durulduqca məlum olur ki, onun təklifi və ideyası əsasında həyata keçirlən işlər əslində məqsədyönlü xarakter daşıyıb. Bakı şəhəri Səbail Rayon Məhkəməsi tərəfindən onun 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilməsindən sonra Rusiya və Ermənistan mətbuatı dezinformasiya xarakterli xəbərlərə dərc etməsi ipin ucunun Şimala doğru getdiyini deməyə əsas verir.

## Rusiya və Ermənistan mətbuatının Ramiz Mehdiyevin həbsinə diqqət ayırmaları şübhəli məqamlar üzə çıxarır

Ramiz Mehdiyevin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə məxfi yazışmaları barədə mətbuatda məlumatların dərc edilməsi məsələnin ciddi olduğunu göstərir. O fikir də vurğulanır ki, R.Mehdiyev Rusiya xüsusi xidmət orqanlarına müraciət edərək, onları Azərbaycanda dövlət çevrilişi etməyə çağırıb. Təbii ki, "Od olmasa tüstü çıxmaz" məsələsinə uyğun olaraq səbəbsiz yerə kimsə və ya hansısa mətbu orqan R.Mehdiyevin Rusiyanın baş agenti ilə yazışmalarına dair məlumat dərc etməz. Nəzərə almaq lazımdır ki, R.Mehdiyev dövlətə xəyanətdə və dövlət çevrilişinə cəhddə ittiham olunur. Hər iki ittihamı şərh edərkən o qənatə gəlmək olar ki, R.Mehdiyev tək deyil, digər tərəfdən onu buna sövq edən kənar qüvvələr mövcuddur. Həmin kənar qüvvələr deyəndə, göz önünə ilk öncə Rusiya gəlir. Çünki Rusiya qonşuluğunda ərazi bütövlüyünü və suverenliyini tam şəkildə həll edən güclü və qüdrətli Azərbaycanın mövcudluğundan narahatdır. Hər vəchlə ölkəmizdə gərginlik yaratmağa və ictimai-siyasi sabitliyi pozmağa çalışır. Ancaq məkrli planını həyata keçirə bilmir. Birincisi, ona görə ki, xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir, ikincisi ölkəmizdə güclü ictimai-siyasi sabitlik hökm sürür, üçüncüsü isə cəmiyyət dövlətimizin qurucusu və memarı Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqdir.

Azərbaycanın ictimai rəyində o fikir mövcuddur ki, Ramiz Mehdiyev Rusiyanın adamıdır. Azərbaycan Demokratik Partiyasının sədri Sərdar Cəlaloğlu iddia edir ki, R.Mehdiyev uzun illər öncədən Rusiya qarşısında üzərinə öhdəliklər götürüb: "Onun Rusiyanın maraqlarına xidmət etdiyini 10-20 il əvvəldən bilirdik. Sadəcə, o dövrdəki geosiyasi şərait Kremllə açıq qarşıdurmaya imkan vermirdi. Qarabağ problemi ciddi şəkildə gündəmdə idi.

Ramiz Mehdiyev bu problemin həllinə də mane olur, eyni zamanda Rusiyanın təsiri ilə Azərbaycan hökumətini və xalqını müəyyən mənada şantaj altında saxlayırdı. O dövrdə ölkəmizin Türkiyə, Pakistan və ABŞ-la münasibətləri indiki qədər güclü deyildi. Nə suverenliyimizə, nə də təhlükəsizliyimizə təminat var idi. Lakin son illərdə vəziyyət ciddi şəkildə dəyişib. Azərbaycan balanslaşdırılmış siyasətdən imtina edərək Avropa və ABŞ-la yaxın əməkdaşlıq kursunu seçib. Bu da Rusiyanın ölkədəki agentura şəbəkəsini neytrallaşdırmaq və təsir imkanlarını məhdudlaşdırmaq üçün şərait yaradıb. Ramiz Mehdiyevə qarşı irəli sürülən ittihamların hər biri obyektiv və əsaslıdır. Qanunvericiliyimizin sərtləşməsi, siyasi məhbusların yaranması, ziyalıların və gənclərin ölkəni tərk etməsinə səbəb olan siyasətin başında da məhz Mehdiyev dayanırdı. O, bütün bunları Rusiyadan aldığı göstərişlər əsasında həyata keçirib".

Söz yox ki, Ramiz Mehdiyev tək deyil, onunla eyni təxribatları, məkrli planları bölüşən şəxslər var. Yəqin ki, Azərbaycan hüquqmühafizə orqanları tədricən onları həbs etməklə kimliklərini ictimaiyyətlə bölüşəcəklər. Hələlik isə o sual açıq qalır, bundan sonra onun bəh-bəhlə pencəyinin döşünə taxıb, nümayiş etdirdiyi orden və medalların aqibəti necə olacaq? Qanunvericiliyə istinad etsək, o zaman məhkəmənin qərarı ilə onun bütün titullarının, orden və medallarının əlindən alınacağını demək olar. Xalqımızın partiyası olan Yeni Azərbaycan Partiyasının sıralarından da xaric olunacağı şübhəsizdir. Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri Arif Rəhimzadə bununla bağlı bildirib ki, Ramiz Mehdiyev nə YAP-ın, nə də YAP Veteranlar Şurasının üzvü kimi qala bilməz: "Ramiz Mehdiyev Yeni Azərbaycan Partiyasından çıxarılacaq. Bununla bağlı bu günlərdə partiyanın müvafiq qurumlarının iclası olacaq. Məhkum olunan insan partiyada qala bilməz".

## Ramiz Mehdiyevin qeyri-qanuni yollarla əldə etdiyi əmlakı milyonlarla ölçülür

Vəzifədə olarkən, statusundan və vəzifə səlahiyyətlərindən istifadə etməklə Ramiz Mehdiyev özünə və ailə üzvlərinə dəyəri milyonlarla ölçülən daşınan və daşınmaz əmlak toplayıb. Onun əmlakının bir qismini nəzərdən keçirərkən adam dəhşətə gəlir. Düşünürsən ki, bu insan minlərlə insanın boğazından, əyin başından kəsdirib, özünə böyük var-dövlət toplayıb. Bu şəxs kəndçinin torpaq sahəsini, sahibkarın əmlakını da əlindən almaqdan çəkinməyib. Beləliklə onun əmlakının siyahısı belədir: Novxanıda yerləşən üzüm bağları, Bakı, Abşeron və Goranboy rayonlarında ümumilikdə 216 hektar kənd təsərrüfatı torpaqları, o cümlədən Novxanıda 155 hektar və Xınalıq kəndində 50 hektar sahə. Eyni zamanda Ramiz Mehdiyevin həyat yoldaşı Qalina Mehdiyevanın adına Maştağada 892 sot, qızı Kamilə Əliyevanın adına isə 240 sot torpaq qeydiyyatdadır. Ailənin nəvəsi Nigar Mehdiyeva 2008-ci ildə Bakıda qeydiyyatdan keçmiş Media FM radiostansiyasının sahibi olan Digital Media MMC-də paya sahibdir.

Kamilə Əliyevaya İstiqlaliyyət küçəsi, 11 ünvanında yerləşən mənzil məxsusdur: həmin ünvan İnfonet MMC və Caspian Telekom MMC-nin hüquqi ünvanıdır. Bundan əlavə, Mehdiyevə Dilarə Əliyeva küçəsi, 251A ünvanında bir sıra obyektlər, o cümlədən Topaz və Qala-R.L Mənzil Tikinti Kooperativləri (MTK), NLT MMC və Premium Store MMC aid edilir. Siyahıda həmçinin NLT, Servis, Grand Palace, Astoriya, Astoriya Tibb Mərkəzi MMC (2020-ci ildən - German Hospital) və 2014-cü ildə açılmış, sahəsi 5 min m?-dən çox olan Qrandezza Ticarət Mərkəzi MMC qeyd olunur.

Həmçinin 50 milyon manat nizamnamə kapitalı olan BTB ASC bankının 75%-i Mehdiyevin nəvəsinə məxsusdur. O, eləcə də BTB Lizinq ASC və BTB Kapital İnvestisiya Şirkəti ASC-nin təsisçisidir.Bundan başqa, Ramiz Mehdiyev Əhmədli qəsəbəsində yerləşən Şərq-Qərb nəşriyyatı ilə əlaqələndirilir. Həmin ərazidə agentliyin binasında 408 mənzilli 16 mərtəbəli yaşayış binası və yaxınlıqda daha bir 16 mərtəbəli bina inşa olunub. Əlaqəli şirkətlər arasında Şərq-Qərb Nəşriyyat Evi MMC və Qlobal East West MMC göstərilir.

Ailəyə həmçinin "Sədərək" və "Binə" ticarət mərkəzlərində paylar, eləcə də bir neçə villa aid edilir: Bakıda Tbilisi prospektində (36 sot, satış qiyməti 8 milyon dollar), həmçinin Göyçay, Şamaxı və Göygöl rayonlarında yerləşən bağ evləri.Heç şübhəsi ki, qeyri-qanuni yollarla əldə olunan var-dövlər məhkəmə tərəfindən müsadirə olunacq. Bunu təsdiq edən amil onun ittiham olunduğu maddələr üzrə əmlaklarının müsadirə olunmasının nəzərdə tutulmasıdır.

***İLHAM ƏLİYEV***

# "Qızıl qızdırması"nın ardınca "gümüş sindromu" başlayır? Metal birjalarında yeni tendensiyalar

***Dünya qiymətli metal birjalarında baş verən yeni "qızıl qızdırması" ilə yanaşı daha bir metalın sürətli bahalaşması müşahidə olunur. Bu, gümüşdür, hansı ki, onun təkcə bəzək əşyası və sağlamlığa müsbət təsir edən metal kimi əhəmiyyəti deyil, həm də sənaye və texnoloji əhəmiyyəti də yüksəkdir.***

Gümüş bir neçə ildir ki, qızılın rekord bahalaşma həddi ilə kölgədə qalır, lakin bu il qızılın 55% lkik bahalaşması ilə müqayisədə, onun bahalaşması təxminən 80% olub. Bu o deməkdir ki, gümüşə investisiya qoymaq daha bahalı qiymətli metaldan (qızıldan) daha sərfəlidir.

Hətta bir neçə ildir ki, müxtəlif ölkələrdən olan ekspertlər əhalini öz əmanətlərini qızılla yanaşı, davamlı bahalaşacağı şübhə doğurmayan gümüşdə də saxlamağa çalışır.







Gümüşün bahalaşması rekordlar vurmaqda davam edir. Bu il qiymət artıq ilin əvvəlinə nisbətən 80%-dən çox artıb- 2010-cu illə müqayisədə isə, qiymət 83,3% artıb. Tarixən 2009-2010 və 2020-ci illərdə 40%-dən çox əhəmiyyətli qiymət artımı baş vermişdi.

Gümüşün qiymətinin artmasının bir neçə səbəbi qızılla eynidir. Bunlara ABŞ, Fransa, Yaponiya və digər böyük iqtisadiyyatlardakı geosiyasi və büdcə gərginliyi, inflyasiya və valyuta devalvasiyaları daxildir. İnvestorlar qızıl və gümüş almaqla dollar və avronu gözləyən təhlükələrdən sığortalanmaq istəyirlər. Gümüş qiymətləri 2024-cü ildə 18% artaraq qızıldan daha yüksək qazanc gətirib. Bu artım inflyasiya təzyiqləri və xüsusilə bərpa olunan enerji sahəsində artan sənaye tələbi ilə əlaqələndirilir.

Eyni zamanda, unikal səbəblər var. Buraya bazardakı gümüş qıtlığı daxildir, proqnozlara görə, bu il ödənməyən tələb 800 milyon unsiyaya çata bilər. Gümüş İnstitutunun məlumatına görə, ümumi gümüş təklifi 3% artaraq son 11 ilin ən yüksək səviyyəsinə - 1,05 milyard unsiyaya çatacaq. Bununla belə, ümumi tələb həcminin 1,2 milyard unsiya səviyyəsində qalacağı gözlənilir ki, bu da tələb artımının təklifi üstələyə biləcəyini göstərir.

Gümüş zinət əşyaları və süfrə ləvazimatları bazarında bir qədər zəifləsə də, istehlak elektronikasında və sənaye istehsalında güclü artım proqnozlaşdırılır. Güclü bazar dinamikası, bərpa olunan enerji və günəş panelləri sahəsindəki geniş istifadəsi, eləcə də potensial qiymət artımı gümüşü 2025-ci ildə izlənilməsi vacib olan bir aktivə çevirir.



İnvestorlar uzun illər qızıla diqqət yetirdilər və nəticədə qızıl tarixi rekordlar vurdu. Yalnız bu il əsas investorlar, ilk növbədə, gümüş külçələrə investisiya etməyə başladılar. Gümüş bazarı qızıldan 10 dəfə kiçikdir və bu il ona qızıldan daha çox sərmayə qoyuldu. Nəticədə gümüşün sürətli bahalaşması baş verdi.

Qızıl və gümüş qiymət cəhətdən tez-tez eyni istiqamətdə hərəkət edir (lakin həmişə deyil), lakin bu metallar arasında əhəmiyyətli fərqlər var. Qızıl dəbdəbəli daşınmaz əmlaka bənzəyir, onun əsas məqsədi dəyər saxlamaqdır. Onu mərkəzi banklar və böyük



investorlar təcili ehtiyat kimi alırlar, fərdlər isə öz əmanətlərini inflyasiyadan qorumaq üçün alırlar. Gümüş isə daha çox sənaye metalıdır, o daha işgüzardır. Gümüş hər smartfonda, kompüterdə və televizorda olur. Buna görə də yaşıl iqtisadiyyat sahələri gümüşə yüksək tələbat yaradır.

Gümüşə ən çox tələbat sənayedən yaranır. Sənaye tələbinin 2025-ci ildə 677,4 milyon unsiyaya çatacağı proqnozlaşdırılır. Bu, ümumi tələbin təxminən 60%-ni təşkil edir.

Gümüşün (həmçinin qızılın) ən böyük alıcıları Hindistan və Çindir. Onların güclü sənaye bazası, böyük əhalisi var və gümüş zərgərlik məmulatı kimi ənənəvi olaraq ailə sərvəti kimi ötürülür. Analitiklər hesab edir ki, gümüş investisiya dalğası hələ stansiyanı tərk etməyib. Bununla belə, gümüş digər zərgərlik məmulatları kimi hələ ki ciddi investisiya vasitəsi deyil.

İstənilən zinət əşyaları zərgərdən sifarişlə istehsal olunan məhsuldur ki, burada metalın üzərindəki qiymət artımı 100-200 faizə çata bilər. Yəni alıcının bərabərlik əldə etməsi üçün metalın qiymətinin 100-200 faiz qalxması lazımdır və bu il artım tempi daha da aşağıdır. Üstəlik, satmaq istədiyiniz zərgərlik məmulatınız "lom" qiymətinə- 30 faiz ucuz qiymətə alınacaq.

Qızıldan fərqli olaraq, gümüş daha əlçatan görünür. Bununla belə, ekspertlər xəbərdarlıq edir ki, qiymətli metallar bazarı ucuzlaşmağa başlasa, gümüş qızıldan daha kəskin ucuzlaşacaq. Proqnozlara görə, 2026-cı ilin əvvəlində gümüş bir unsiya üçün 60-65 dollara qədər bahalaşa bilər.Bununla belə, daha sürətli artımın baş verməsi ehtimalı var. Ekspertlər qiymətin 100 dollara çata bniləcəyini də istisna etmir.

Gümüş bəzi sahələrdə qızıldan üstün keyfiyyətlərə malikdir. Gümüş nitrat AgNO3 tibbi preparat kimi istifadə olunur, protarqol və kollarqol dərman preparatlarının tərkibinə daxildir. Gümüş amalqaması stomatologiyada, xüsusi halda diş protezlərində istifadə olunur.

Qədim zamanlarda insanlar gümüşü su və ərzaq saxlamaq məqsədilə qablar və tutumlar hazırlamaq üçün istifadə edirdilər. Çünki, gümüş bakteriostatik təsirə malikdir. Məlumdur ki, hər gün milyonlarla hindlilər Qanq çayında çimərək dini ayinlər icra etsələr də yoluxucu xəstəliklərə tutulmurlar. Bunun səbəbi odur ki, bu çayın suyunda yüksək miqdarda gümüş ionları var.

Bu metalın təyinatı çoxtərəfli olduğuna görə ona tələbat həmişə böyük olacaq. Bu səbəbdən gümüşün bahalaşacağı, ən azı ucuzlaşmayacağı şübhəsizdir.

***Elçin Bayramlı***

# III Dünya Müharibəsi: ssenarilər və nəticələr



"III Dünya Müharibəsi" anlayışı - qlobal miqyaslı silahlı toqquşma, bir neçə böyük qüvvələrin (supergüclərin) iştirakı ilə - uzun zamandır beynəlxalq siyasətin düşüncələrində var. Bu, qorxu, ehtiyatlılıq və diplomatik səbəblərlə bağlıdır. Bəşəriyyət II Dünya Müharibəsindən sonra nüvə silahlarının yayılması, beynəlxalq təşkilatların yaranması, müharibələrin məhdudlaşdırılması üzərində qurulmuş strukturlar - hamısı böyük münaqişələrin qarşısını almağa yönəlib. Lakin son illərdə beynəlxalq münasibətlərdə gərginliyin artması, regional münaqişələrin sayının yüksəlməsi, geosiyasi bloklaşmalar, nüvə silahı məsələlərinin yenidən gündəmə gəlməsi "III Dünya Müharibəsi" riskini yeniden düşünməyə vadar edir.




## Niyə "III Dünya Müharibəsi" ola bilər?

İlk versiya geosiyasi rəqabət, bloklaşmadır. Böyük dövlətlər - ABŞ, Çin, Rusiya kimi, bir-birilərinin təsir zonalarına nüfuz etmək, strateji üstünlük qazanmaq istəyirlər. Məsələn, Çin-ABŞ münasibətlərində Tayvan, Cənub Çin Dənizi kimi məsələlər, Rusiya-Qərb arasında Ukrayna münaqişəsi, İranın nüvə proqramı və Orta Şərqdəki rolları kimi mövzular bu rəqabətin nümunələridir. İkinci versiya Regional münaqişələrin böyüməsi və müdaxilələrdir. Kiçik və orta ölçülü münaqişələr, proxy (vasitəçi) müharibələr, ya da qarşıdurmalar qlobal qüvvələrin maraqlarını cəlb etdikcə, onların genişlənmə ehtimalı artır. Məsələn, Ukrayna münaqişəsi yalnız bölgə üçün deyil, NATO və Rusiyanın münasibətlərində ciddi təsir göstərir.

Üçüncü versiya sənaye və texnoloji silahlanma, nüvə gücüdür. Nüvə silahları hələ də ən güclü sülh qoruyucularından biri kimi qiymətləndirilir - "nüvə çəkisi" (nuclear deterrence). Lakin nüvə silahlarının yayılması və bəzi ölkələrin bu mövzuda qaydasız davranışları, kiber və kosmik silahların inkişafı, avtonom silah sistemləri, süni intellekt kimi texnologiyaların fəaliyyəti müdavimi yanlış anlaşmalara, silahlı toqquşmalara səbəb ola bilər.

Dördüncü versiyaya resurs çatışmazlığı və iqlim dəyişikliyidir. Su, ərzaq, enerji kimi əsas resurslara olan tələbat artdıqca, iqlim dəyişikliyi ilə əlaqəli çətinliklər (quraqlıqlar, daşqınlar, əkinçilik üçün əlverişsiz şərait) bölgələrdə humanitar böhranın yaranmasına səbəb olur. Bu, miqrasiya, sərhəd münaqişələri kimi məsələləri qızışdıra bilər.

Digər versiyalardan biri Suriya və Orta Şərq kimi qeyri-sabit regionlarda baş verən hadisələrdir. Bu cür regionlarda dövlət strukturlarının zəifliyi, etnik və dini ayrı-seçkiliklər, terrorizmin mövcudluğu, sərhəd çəkişmələri münaqişələrin regional müstəvidən çıxaraq qlobal gücləri cəlb etmə riskini artırır. Diplomatik səhvlər, kommunikasiya uğursuzluqları da versiyalar sırasındadır. Silahlı eskalasiya riski olan hadisələrdə yanlış hesablama, provokasiyalar, dezinformasiya kimi amillər münaqişələrin kontrolsuz böyüməsinə gətirib çıxara bilər. İttifaq sistemləri və təhlükəsizlik zəmanətlərinin böhranı, məsələn, NATO-nun genişlənməsi, müdafiə xərclərinin artması kimi faktorlar - müttəfiqlərin bir-birinə "təhlükə zəmanəti" vermələri prosesində ziddiyyət yarada bilər. Eyni zamanda, bəzi ölkələr öz müdafiə strategiyalarını yalnız müttəfiqə güvənərək formalaşdırırsa, bu da sürprizlərə səbəb ola bilər.

## Mövcud reallıqlar

Hazırda çoxsaylı regional münaqişələr var (Ukrayna, Orta Şərq, müxtəlif sərhəd çəkişmələri), amma dünya dövlətlərinin əksəriyyəti birbaşa qarşıdurmaya girməyib. Diplomatik vasitələrlə, sanksiyalarla, iqtisadi və siyasi təzyiqlərlə vəziyyət idarə olunur. Bir çox ekspert "III Dünya Müharibəsi"nin baş vermə ehtimalını sıfıra endirmək mümkün olmadığına da işarə edir. Çünki müharibənin gətirə biləcəyi dağıdıcı nəticələr - nüvə silahı, infrastrukturun məhv olması, insan itkisi dövlətlər üçün yüksək riskdir. Nüvə silahları hamının itirə biləcəyi bir münaqişə qorxusunu artırır. Bu, bəzi dövlətləri daha ehtiyatlı davranmağa sövq edir. Lakin bu qorxu, səhv addımlar, texnoloji qəza və ya provokasiyalar vəziyyətində kifayət qədər səmərəli olmayacağı ehtimalı da var.

## Bu müharibənin "Qalib"i ola bilərmi?

Müharibə qalibi anlayışı "III Dünya Müharibəsi" kimi ölçüdə olduqda çox çətindir. Bu da səbəbsiz deyil. Əvvəla, dağıdıcı potensial çox yüksəkdir.

*Ardı Səh. 12*



# Füzuliyə Füzulidən danışdım...

**MƏTANƏT**

Ey böyük Məhəmməd Füzuli, 2020-ci ilin 17 oktyabrında Azərbaycanın gözü, döyünən ürəyi Füzuli rayonunun növbəti bir sıra kəndlərinin və Füzuli şəhərinin işğaldan azad olunması xəbərini ölkəmizin Prezidenti, Ali Baş Komandandan alanda ilk xəyalıma gələn Sən oldun. Milli Ordumuzun qanı, canı bahasına düşməndən qopardığı əzəli və əbədi yurd yerlərimiz Səni xatırlatdı mənə. Ey torpaq sevgisinin aşiqinə çevrilən, ey Vətən sevgisinin Məcnunu olan, ədalətə, haqqa canını qurban verən, damarlarından axan azərbaycanlı qanının coşğusu ilə döyüş meydanı söz olan şair... Dünyanın neçə-neçə hökmdarlarını yola salan, əsrlərin müharibələrinə, qələbələrinə şahid, sözü ilə daimyaşar Füzuli... Yadıma sən düşdün. Çünki Sən Füzuli rayonundan da, füzulilərdən də qocamansan... Bu müjdəni ilk olaraq səninlə bölüşmək istədim.

Dedim, gözün aydın, Məhəmməd Füzuli, əsası 1827-ci ildə qoyulmuş, Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılan rayonun 1959-cu ildə Sənin-böyük şairimizin 400 illik yubileyi münasibətilə adı dəyişdirilərək Füzuli qoyulan yurd yerimiz düşməndən azad olundu. Qəbrində rahat yat. Su çilənsin məzarına. Qılıncdan iti qələmini süngərə çevirən Azərbaycan əsgəri bir dastan yazdı. Bu dastan "Qarabağ" dastanıdır. Sən də bu dastanın bir boyuna çevrildin. Füzulililər bu gün sevinc içərisindədir. 1993-cü ildə doğma ev-eşiklərindən düşmən ermənilər tərəfindən zorla didərgin düşmüşdülər. Füzulidə doğulan Füzuliyə həsrət qalmışdı. Füzulidə ev-eşik salan, torpağını canından artıq sevən azərbaycanlılar illərdir ki, bu torpağın ətrini burunlarında hiss edirdilər. Gülündən, çiçəyindən, dərəsindən-düzündən ayrı düşmüşdülər. Sənin qəzəllərinin torpaq sevdalılarına, Vətən aşiqlərinə, həsrətlilərinə çevrilmişdilər. 30 ilə yaxındır ki, dünyanın "ədalətə cavabdehləri" danışır, danışır, danışdıqca da söz həqiqət məhvərindən çıxıb başqa məcralara yönəlirdi. Sənin:

Gər çox istərsən, Füzuli, izzətin az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz.

Sənin "Əgər sözün hörmətli, dəyərli olmasını istəyirsənsə, miqdarini az et, çünki çox danışmaq çox insanı hörmətdən salıb",- nəsihətini dinləmədi bu "ədalət cavabdehləri". Söz sözlükdən çıxdı, yalanlara qurban getdi, Füzuli. Hansı ki, sən sözü dünyanın tacı, insanlığın açarı, mənəviyyatın varlığı hesab edirdin:

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

"Sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca, dirilmiş olasan",-deyirdin. Sözü yalan olanlar ölümlərindən sonra da xatırlanacaq, şair. Lakin tamamilə başqa cür xatırlanacaqlar: bir xalqın əzəli torpaqlarının işğalına göz yumanlar kimi, minlərlə şəhidin qanında boğulanlar kimi, yüzlərlə dinc sakinin, xüsusilə də uşaqların qanlarına əlləri batmış və sözünü tutmayan, sözünün ağası olmayanlar kimi.

Gözün aydın, Füzuli! Xalqın dastan yazdı, tarixi "Qarabağ" dastanını yazdı. Bu ali bir dastandır, çünki şəhid qanı ilə, bir də dövlətimizin rəhbərinin kəsərli sözü ilə yazıldı. Qarabağın əsrlərlə yaşı fonunda 30 illik nisgilinin qələbəsini yazdı. Ali Baş Komandanın böyük Milli Ordumuza əmri, xalqına verdiyi inamla yazıldı bu dastan. Sənin adını daşıyan Füzuli də bu dastanın bir boyu oldu.

Əvvəli Səh. 11

# III Dünya Müharibəsi: ssenarilər və nəticələr

Nüvə silahlarının istifadəsi olarsa, qalib belə olsa, məhv olmuş, yararsızlaşmış infrastruktura, ölüm və dağıntılara baxdıqda qalibiyyətin mənası olmaz. İkincisi, siyasi və iqtisadi nəticələr əldə etmək mümkün olmaz. Müharibə, "qalib" dövlətin iqtisadiyyatını məhv edə bilər. Qazanılan torpaq, nüfuz, ittifaq strukturu kimi üstünlüklərin çoxu müharibə sonrası yenidən bərpa olunması çətin olacaq. Həmçinin qalib dövlətin öz daxili sabitliyi və beynəlxalq imicinə də zərər gələ bilər. Üçüncüsü, müttəfiqlərin itkisidir. Qaliblik tərəfinin müttəfiqləri çox vaxt böyük itkilər verə bilər, ittifaq sistemində olan ölkələr arasında heç kim tam "zərərsiz qalib" ola bilməz. Dördüncüsü, müharibə sonrası dünya nizamıdır. Müharibə çox vaxt yeni beynəlxalq nizamı doğurur, amma bu nizam həm qalibin maraqlarına, həm də bəzən qalib olmayanların yenidən güclənməsinə bağlı olur. Qalib ölkənin hətta daxili problemləri







ola bilər (mədəni, sosial, iqtisadi), bu da müharibədən sonrakı vəziyyəti mürəkkəbləşdirir. Beşincisi, mədəni və insani ölçüdür. "Qalib" məfhumuna yalnız torpaq, nüfuz və siyasət baxımından deyil, həmçinin insanların itkiləri, mifologiya, ümumi psixoloji və mədəni ziyan baxımından yanaşmaq lazımdır. Bu baxımdan qalibiyyət insanlıq adına mənəvi olaraq ağır yük ola bilər.

## Ssenarilər

Gərginliklərin "yanlış hadisə" ilə eskalasiyası baş verə bilər. Məsələn, sərhəd insidenti, pilotsuz aparat (dron) zərbəsi, kiberhücum, ya da NATO və Rusiyanın sərhədində baş verən bəhanəli hadisə böyük qarşılıqla davam edə bilər. Regional blokların genişlənməsi də qlobal qarşıdurmanın səbəbi kimi ortaya çıxa, mövcud münaqişələr - Tayvan-Çin, Hindistan-Pakistan, Orta Şərq - beynəlxalq güclərin müdaxiləsi ilə böyüyə bilər. Nüvə silahlarının yeni ölkələrdə yayılması və ya Qərb-Şərq arasında silahlanma yarışının yenidən alovlanması isə bu, sabitliyi pozaraq, qorxu və qarşılıqlı şübhə anlayışını artıra bilər.

İqlim böhranı, resurs çatışmazlığı və miqrasiya ilə bağlı daxili və beynəlxalq gərginliklər yeni qarşıdurmalar üçün katalizator rolunda çıxış edə bilər. Su və ərzaq çatışmazlığı kimi problemlər dövlətlərarası münasibətlərə gərginlik gətirə, humanitar böhranlar, miqrasiya dalğaları bəzi dövlətlərdə daxili sabitliyi poza bilər.

## Müharibənin baş verməməsi üçün maneələr varmı?

Nüvə qorxusu - nüvə qüvvələri olan dövlətlər bir-birinə qarşı nüvə istifadə riskini çox ciddi dəyərləndirir. Beynəlxalq təşkilatlar və diplomatik institutlar - BMT, NATO və digər regional təşkilatlar münaqişələrin aradan qaldırılması, sülh danışıqları, vasitəçilik kimi rollar oynayırlar. İqtisadi interdependensiya - qlobal ticarət, investisiyalar, enerji və texnologiya sahələrində ölkələr arasında qarşılıqlı asılılıq müharibənin iqtisadi riskini artırır, belə ki, mənfəətli olmayan bir müharibə riski çox böyükdür. Publik reaksiya və beynəlxalq ictimaiyyətin təsiri - müharibə ilə bağlı mümkün itkiləri insanlarda qorxu doğurur, dövlət liderləri çox vaxt ictimai rəy və beynəlxalq məzlumiyyət riskini nəzərə alır.

Əgər "III Dünya Müharibəsi" baş verərsə, müharibənin "tam qalibi" olması ehtimalı çox aşağıdır. Qalib dövlət ola bilər - hərbi baxımdan üstünlük, torpaq və nüfuz qazanan, başqa dövlətlər üzərində siyasi üstünlüyü artıran bir dövlət. Amma bu qalibin daşıyacağı ictimai, iqtisadi, humanitar və diplomatik yük çox böyük olacaq. İnsan itkisi, infrastrukturdakı dağıntılar, müharibədən sonra yaranacaq iqtisadi böhranlar qalib dövlətin özü üçün də uzun müddətli problemlər doğura bilər. Dünyanın çox hissəsi üçün "qalib olmaq" anlayışı münaqişənin ölçüsü, müddəti və istifadə olunan silahların növündən asılı olaraq dəyişəcək. Bəzi ölkələr üçün "qalib olmaq" sadəcə hayatda qalmaq, öz sərhədlərini qoruyub saxlamaq ola bilər.

## Müharibə və Azərbaycan

III Dünya Müharibəsi ehtimalı mücərrəd və qorxulu bir ssenari olsa da, bu mövzu üzərində düşünmək xüsusilə kiçik, lakin strateji mövqeyə malik ölkələr üçün zəruridir. Azərbaycan Cənubi Qafqazın ən mühüm aktorlarından biri olaraq, enerji resursları, geosiyasi yerləşməsi və regional ittifaqları baxımından, ya birbaşa, ya da dolayı yollarla, belə bir münaqişədə mühüm rol oynaya bilər. Azərbaycanın yerləşdiyi bölgə - Cənubi Qafqaz - tarixi olaraq Rusiya, İran, Türkiyə və son illərdə Qərb (ABŞ, NATO, Avropa İttifaqı) arasında maraqların kəsişdiyi bir ərazidir. Azərbaycanın əsas geosiyasi üstünlükləri isə strateji nəqliyyat yolları - Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzərində olmasıdır. Enerji infrastrukturu - Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri, TANAP və TAP qaz layihələri ilə Avropanın enerji təhlükəsizliyində əsas oyunçudur.



Türkiyə ilə yaxın müttəfiqlik, regional və hərbi-strateji əməkdaşlıq. Azərbaycanla Türkiyə arasında təhlükəsizlik məsələlərinə dair imzalanmış strateji müqavilələrdən irəli gələn məsələlər sırasında qardaş ölkənin regionda milli maraqları, onun milli təhlükəsizlikməsələləri ilə sıx bağlıdır. Narahat regionda işğalçılığı göz yummaq ona haqq qazandırmaq kimi ədalətsizlik edən qüvvələrə qarşı qardaş Türkiyə və Azərbaycan dövlətləri milli təhlükəsizliyə olan təhdidlərin zərəsizləşdirilməsi baxımından strateji müttəfiqlik yolunu tutublar. Bu da öz növbəsində hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi yolunda yeni imkanların yaranmasını müntəzəm olaraq gündəmə gətirməkdədir. Məsələn bu gün Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə məsələsi Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. İki ölkə terrorizmdən əziyyət çəkdiyi üçün bu istiqamətdə ayrı-ayrılıqda və birgə mübarizəni haqlı olaraq bir sıra dövlətlərin qarşısında kəskin qoyurlar. Azərbaycan dövlətinin bütün bunlarla bağlı açıq, səmimi, obyektiv, ciddi arqumentlər əsasında birmənalı mövqeyi hər zaman Prezident İlham Əliyev tərəfindən ifadə olunub. Azərbaycanın Rusiya ilə balans siyasəti də mühüm amillərdəndir. Həm KTMT-yə qoşulmayıb, həm də Rusiya ilə sabit münasibətlər saxlayır. İranla həssas münasibətlər, Güney Azərbaycan məsələsi və dini-fəlsəfi fərqlər gərginlik yaratsa da, qonşuluq və ticarət əlaqələri davam edir.

III Dünya Müharibəsində Azərbaycan üçün 3 mümkün ssenari var. Birincisi, neytral və balanslı mövqedir. Azərbaycan münaqişəyə birbaşa qatılmır, amma öz ərazisini heç bir hərbi blokun istifadəsinə vermir. Bu halda, sülh diplomatiyası yürüdə bilər, enerji infrastrukturlarını qorumaq prioritet olar. Belə bir məqamda hərbi neytrallıq saxlanılsa da, Türkiyə ilə strateji bağlar qorunar. Risklər də var, münaqişə zonalarının yaxınlığında olmaq (məsələn, Rusiya-NATO qarşıdurması). Enerji infrastrukturuna sabotaj təhlükələri. Regional qeyri-sabitlik (Ermənistan-İran və ya Ermənistan-Rusiya ittifaqları ilə bağlı risklər).

İkinci ssenari, Türkiyə vasitəsilə NATO blokuna yaxınlaşmadır. Azərbaycan Türkiyə ilə strateji müttəfiqliyi nəzərə alaraq dolayısı ilə NATO blokuna yaxınlaşır. Bunun mümkün nəticələri də var. Bunlar müdafiə gücünün artması, kollektiv təhlükəsizlik zəmanətləri, enerji təchizat zəncirində Qərbin prioritet müttəfiqi statusu və qərb texnologiyalarına və maliyyə resurslarına çıxış imkanıdır.

Risklər də var, bu, Azərbaycanın tarazlıq siyasətindən çıxaraq şimal və ya cənub qonşularına hərbi və siyasi baxımdan yaxınlaşması deməkdir. Münaqişənin birbaşa tərəfində olmamaq Azərbaycan üçün ən rasional və təhlükəsiz seçim ola bilər. Diplomatik çeviklik - eyni anda Türkiyə ilə ittifaqı qoruyub, Rusiya və İranla münasibətləri pozmamaq mühümdür. Enerji və nəqliyyat yollarının təhlükəsizliyi dövlət prioritetinə çevrilməlidir. Neytrallıq, amma müdafiəyə hazır olmaq siyasəti - müharibənin qarşısı alınmasa belə, zərəri minimuma endirmək mümkündür.

III Dünya Müharibəsi baş versə belə, Azərbaycan kimi strateji amma orta ölçülü dövlətlər üçün "düzgün mövqe seçimi" yaşamaq qədər vacib olacaq. Neytral qalmaq, amma güclü olmaq - bu siyasət həm təhlükəsizlik, həm də dövlət müstəqilliyi baxımından ideal yanaşmadır.

***V.VƏLİYEV***

# Füzuli şəhərinin azad olunmasının tarixi-siyasi və sosial əhəmiyyəti

***Azərbaycan xalqının müasir tarixində elə günlər var ki, həmin günlər milli kimliyimizin, dövlət müstəqilliyimizin və ərazi bütövlüyümüzün simvoluna çevrilmişdir. Bu mənada 17 oktyabr - Füzuli şəhərinin azad olunduğu gün xüsusi yer tutur. Məhz bu tarix Azərbaycan Ordusunun qəhrəmanlığı, Ali Baş Komandanın dəmir iradəsi və xalqımızın birliyinin təntənəsidir. Füzulinin azad edilməsi təkcə hərbi əməliyyat deyil, həm də 30 ilə yaxın davam edən işğalın sonuna doğru açılan qələbə səhifəsi idi. Bu hadisə Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla yanaşı, regionun gələcək inkişafına da təkan verdi.***






***İlham QAYIBZADƏ,***
***Veteranlar və Şəhid Ailələri İctimai Birliyinin Binəqədi rayon filialının sədri, 2-ci qrup Qarabağ müharibəsi əlili***

1993-cü ilin avqust ayında Ermənistan Silahlı Qüvvələrinin Füzuli rayonunu işğal etməsi nəticəsində minlərlə dinc sakin doğma yurd-yuvasından didərgin düşdü. Şəhər və kəndlər tamamilə dağıdıldı, mədəni irs nümunələri məhv edildi. Bu illər ərzində Füzuli bir viran yerə çevrilmiş, həyat tam dayanmışdı. Azərbaycan xalqı isə heç zaman bu ədalətsiz işğalla barışmadı. Hər bir vətəndaşın qəlbində "Qarabağ Azərbaycandır!" inamı yaşayırdı. Bu mənəvi möhkəmlik 2020-ci ilin payızında başlanan Vətən müharibəsində öz bariz təzahürünü tapdı.

2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsi zamanı Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və strateji əməliyyatlar həyata keçirdi. Oktyabrın 17-də Füzuli şəhərinin azad edilməsi hərbi baxımdan mühüm strateji mərhələ idi. Çünki Füzulinin azad olunması ilə Cəbrayıl, Xocavənd və Şuşa istiqamətində əməliyyatların aparılması üçün əlverişli mövqelər təmin edildi. Füzuli uğrunda döyüşlər zamanı Azərbaycan əsgərinin göstərdiyi igidlik, yüksək döyüş ruhu və peşəkarlıq Vətən müharibəsinin simvollarından birinə çevrildi.

Bu əməliyyatın uğuru həm də Azərbaycan hərb tarixində yeni səhifə açdı. Müasir texnologiyalarla təchiz olunmuş ordunun taktiki çevikliyi, yüksək döyüş koordinasiyası və planlı hücum əməliyyatları Füzuli zəfərinin təminatçısı oldu. Azərbaycan xalqı həmin günü sonsuz qürur hissi ilə xatırlayır.

Azadlıqdan sonra qarşıda duran ən mühüm vəzifə - dağıdılmış şəhərin bərpası və yenidən qurulması idi. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Füzuli rayonunda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. "Böyük Qayıdış" proqramı çərçivəsində Füzuli yeni həyat qazanır. Burada beynəlxalq standartlara uyğun infrastruktur yaradılır, yollar, körpülər, sosial obyektlər, məktəblər və xəstəxanalar tikilir.

Xüsusilə Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi bölgənin iqtisadi, sosial və turizm potensialını artıran mühüm hadisə oldu. Bu hava limanı işğaldan azad olunmuş ərazilərə açılan ilk hava qapısı kimi həm də Azərbaycanın güc və iradə simvoludur. Eyni zamanda, "Ağıllı kənd" və "yaşıl enerji" konsepsiyası əsasında həyata keçirilən layihələr Füzulini müasir və ekoloji baxımdan dayanıqlı şəhərə çevirir.

Füzuli təkcə strateji və iqtisadi əhəmiyyət daşıyan bir bölgə deyil, həm də Azərbaycanın mədəni kimliyinin ayrılmaz parçasıdır. Burada yerləşən tarixi abidələrin bərpası, məscidlərin yenidən tikilməsi, mədəni tədbirlərin təşkili xalqın mənəvi dünyasının bərpasına xidmət edir. Füzulinin azad edilməsi ilə təkcə torpaqlar deyil, həm də xalqın yaddaşı, kimliyi və ruhu azad oldu. Hər il 17 oktyabr tarixinin "Füzuli şəhəri günü" kimi qeyd edilməsi də bu mənəvi yenidən doğuluşun simvoludur.

Füzulinin yenidən qurulması eyni zamanda Cənubi Qafqazda dayanıqlı sülh və əməkdaşlığın bərqərar olunması üçün yeni imkanlar yaradır. Bu ərazilərdə iqtisadi zonaların yaradılması, kənd təsərrüfatı və sənaye layihələrinin icrası, müasir şəhərsalma prinsiplərinin tətbiqi Azərbaycanın gələcəyə yönəlik strateji baxışının tərkib hissəsidir. Dövlətin və vətəndaş cəmiyyətinin bu prosesə birgə qoşulması Füzulinin yaxın illərdə tam bərpa olunacağına inamı artırır.

Füzulinin azad olunması Azərbaycanın müasir tarixində qəhrəmanlıq və qürur salnaməsidir. Bu hadisə dövlətimizin gücünü, xalqın birliyini və ədalətin bərpasını nümayiş etdirdi. Bu gün Füzuli dirçəlir, inkişaf edir və regionda yeni həyat nəfəsi kimi doğulur. 17 oktyabr yalnız bir qələbə tarixi deyil, həm də milli yenilənmə, dövlət iradəsi və xalq birliyinin rəmzidir.

***16 Oktyabr- Ümumdünya Anesteziya Günü - xəstələrə ağrısız müalicə almağa kömək edən anestezioloqların peşə bayramıdır. Hər bir cərrahi əməliyyatın uğurlu nəticəsi məhz anestezioloqun peşəkarlığından asılıdır. Anesteziya ilk dəfə XIX əsrdə tətbiq edilib. Anestezioloqlar ən çətin və təhlükəli vəziyyətdə olan xəstələri həyata qaytaran, ağrıdan qoruyan və xilas edən həkimlərdir və onların nəzarəti altında ən mürəkkəb cərrahi əməliyyatlar narahatlıq və qorxu olmadan təhlükəsiz və rahat şəkildə aparılır.***





# 16 Oktyabr- Ümumdünya Anesteziya Günüdür

Mərkəzi Gömrük Hospitalının anestezioloqları ümumi və regional anesteziyadan istifadə edirlər. Əməliyyatın uğurunun yarısı anestezioloqun işindən asılıdır. Onlar anesteziya verməklə yanaşı, əməliyyat zamanı həm də xəstələrin bədəninin bütün parametrlərinə ciddi nəzarət edirlər. Mərkəzi Gömrük Hospitalının Anesteziologiya və reanimasiya şöbəsində ən mürəkkəb əməliyyatların icrası məqsədilə anesteziya dünya standartları səviyyəsində təşkil olunub.

Mərkəzi Gömrük Hospitalının Anesteziologiya və reanimasiya şöbəsinin təcrübəli həkimləri şöbə rəisi, anestezioloq-reanimatoloq Tural Sadıqov, anestezioloq-reanimatoloqlar Mehdi Əliyev, Rəşad Nəsirli, Könül Həsənova, Şahin Mazanov, Xəyal Məmmədov, Sevda Quliyeva, Günel Cəfərovanı və şöbənin həkim-rezidentlərini peşə bayramı günü münasibətilə təbrik edir, onlara şərəfli fəaliyyətlərində uğurlar arzulayırıq!

ARAŞDIRMA

# Payız fəsli və kənd təsərrüfatı

***İqlim dəyişiklikləri bu gün təkcə ekoloji məsələ deyil, həm də iqtisadi və sosial sabitliyə təsir edən qlobal bir çağırış halına gəlib. Bu dəyişikliklər dünyanın bütün regionlarını, o cümlədən Azərbaycanı da əhatə edir. Ölkəmizdə son illər müşahidə olunan orta temperatur artımı, yağıntıların azalması və su ehtiyatlarının tükənməsi kənd təsərrüfatı üçün ciddi siqnal hesab olunur. Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı, həm əhalinin ərzaqla təminatında, həm də minlərlə insanın məşğulluğunda mühüm rol oynayır. Lakin iqlim dəyişikliyi və su çatışmazlığı bu sektorun dayanıqlığını zəiflədərək, məhsuldarlığın azalması, torpaq keyfiyyətinin pisləşməsi və ərzaq təhlükəsizliyinin zəifləməsi kimi problemlərə yol aça bilər.***

Payız mövsümü bu baxımdan xüsusilə əhəmiyyətlidir. Çünki bu dövr qışlıq əkinlərin başlanğıcı, torpağın bərpası və yeni məhsul dövrünə hazırlıq mərhələsidir. Əgər bu fəsildə hava şəraiti qeyri-sabit olarsa - məsələn, yağışlar az, temperatur isə normadan yuxarı olarsa, torpaqda nəm çatışmazlığı yaranır və bitkilərin inkişafı ləngiyir. Əksinə, həddindən artıq yağış və ya erkən şaxtalar da səpin və cücərmə proseslərinə mənfi təsir göstərir.

Bütün bunlar Azərbaycanın müxtəlif bölgələrində fərqli formalarda özünü göstərə bilər:

- Aran zonalarında suvarma çatışmazlığı,
- Dağətəyi ərazilərdə torpaq aşınması və don zədələri,
- Quraq bölgələrdə isə məhsulun keyfiyyətinin və həcminin azalması kimi nəticələr ortaya çıxır.

Beləliklə, iqlim dəyişiklikləri təkcə bir təbiət hadisəsi deyil, ərzaq təhlükəsizliyinə, iqtisadi sabitliyə və sosial rifaha birbaşa təsir edən amildir. Buna görə də payız mövsümündə müşahidə olunan su çatışmazlığı və hava şəraitinin dəyişkənliyi, kənd təsərrüfatında aparılan bütün işlərə və gələcək məhsuldarlığa bilavasitə təsir göstərir.

İndi bu təsirləri daha dərindən araşdırmaq vacibdir: iqlim və su resurslarının azalması hansı məhsullara daha çox təsir edir, fermerlər bu vəziyyətə necə uyğunlaşa bilər və dövlət bu istiqamətdə hansı tədbirləri görür?

SİA mövzu ilə bağlı araşdırma aparıb.









## Payızın xüsusiyyəti və kənd təsərrüfatı

Payızda havalar sərinləşir, temperatur düşür, yağışlar çoxalır və torpağın nəmliyi bərpa olunmağa başlayır. Bu dövr bəzi bitkilər üçün yeni ilkin su ehtiyatlarının doldurulması, toxumların əkilməsi və qışlıq əkinlər üçün hazırlıq dövrüdür. Lakin iqlim dəyişiklikləri bu klassik payızlıq şəraiti də təsir altına alır - məsələn, yağışların gecikməsi, qeyri-sabit paylanması, erkən donlar və ya anidən yüksək temperatur dalğaları.

## Payızda potensial problemlər

*Yağışların qeyri-mütənasibliyi və su çatışmazlığı*

Payız yağışlarının azalması və ya gecikməsi torpağın lazımi nəm səviyyəsinə gəlməməsinə səbəb ola bilər. Bu isə qışlıq əkiləcək bitkilərin (buğda, arpa və s.) inkişafını zəiflədə bilər.

## Erkən donlar və şaxtalar

Əgər payızda qeyri-adi soyuq hava gec gəlirsə, bitkilər hazırlıqsızdonla üzləşə bilər, bu da səpini zədələyər.

## Torpağın keyfiyyətinin zəifləməsi

Güclü yağışlar və küləklər torpağı aşındıra bilər, üst torpaq qatının yuyulmasına səbəb olar. Bu da torpaq keyfiyyətini pisləşdirər.

## Bitki xəstəlikləri və göbələk infeksiyaları

Yağış və rütubətin artması göbələk xəstəlikləri üçün əlverişli mühit yarada bilər, bu da məhsulun itkinə gətirib çıxara bilər.

## Ağır su tələbi və supaylama problemi

Suvarma sistemi köhnə və su itkisi yüksəkdirsə, payızda çatışmayan yağışları tamamlamaq üçün istifadə olunan su mənbələri daha da artar.

## Azərbaycanın vəziyyəti

Ölkədə müşahidələr göstərir ki, orta temperaturlarda artım baş verib və yağıntılar bir qədər azalmaqda davam edir. Məhsuldar ərazilərdə bu dəyişikliklər kənd təsərrüfatını çətinləşdirir.

Dövlət orqanları da bu tendensiyanı görür və kənd təsərrüfatını iqlimə uyğunlaşdırmaq üçün tədbirlər həyata keçirirlər - məsələn, sudan qənaətlə istifadə texnologiyalarının tətbiqi, suvarma sistemlərinin yenilənməsi təşəbbüsləri. Məsələn, "yaşıl kənd təsərrüfatı" təşəbbüsləri çərçivəsində dövlət və ekologiya qurumları su resurslarının idarə olunmasını yaxşılaşdırmaq, yeni metodlara keçmək, torpaq və su itkilərini azaltmaq planları hazırlayırlar.

## Payızda təsir göstərə biləcəyi sahələr və nəticə

Qışlıq əkini zəifləyər - əkin üçün lazım olan yağış və torpaq nəmi kifayət etməzsə, bitkilər zəif start götürər.

Məhsul azlığı - hazırlıq mərhələsi zəif olanda gələcəkdə məhsuldarlıq düşər.

Ərzaq təhlükəsizliyi riskləri - daxili tələbatı ödəmək çətinləşər, ərzaq qiymətləri arta bilər.

Fermerlərin gəliri düşər - daha az məhsul, əlavə xərclər (suvarma, müdafiə tədbirləri və s.) gəliri azaldar.

***Ayşən Vəli***

# Kişilər gününə qadın gözü ilə baxış

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması “istiqaməti çərçivəsində hazırlanıb*



Lap kiçikliyimizdən bizə kişi fiqurunun əhəmiyyəti, ailədəki yeri, vəzifələri, öhdəlikləri haqqında çox danışılıb. Evdə böyüklərimiz, məktəbdə müəllimlərimiz. Biz kişinin əyilməz, sınmaz, yenilməz olduğunu eşidə-eşidə, görə-görə böyümüşük, kişi müəllimlərimizdən dərs almışıq, atamızın sözü ailə konstitutsiyası olub, babamızın sözü nəslin qanunu olub. Sözü kişilər söz xətrinə deməyib, söz bir ailənin, bir nəslin diriliyini mühavizə edib.

Hərdən rastlaşıram, gənc nəsil çox iddialıdır bu məsələdə, yazırpozurlar, ”20-30 il əvvəl qadının ailədə söz haqqı yox idi, kişi dediyi ilə razılaşmağa məcbur idi” deyirlər. Qadının söz haqqı bütün dövrlərdə mübahisəli məsələlərdən olub, o dövrdə də, indi də qadını ikinci növ insan kimi görən zehinlər olub, bu baxış tərzinin dövrlə, zamanla, vaxtla əlaqəsi yoxdur.





Amma kişi sözü zamanla çox tranformasiyaya uğradı. Əvvəllər kişilərin sözü ”kişi sözü” idi - həyat yoldaşını alçaltmayan, ailəsinin rifahına xidmət edən, övladlarının təhsilinə can qoyan kişilərin sözü, bir sözü bir möhürdən, bir qanundan daha ağır çəkili olan, yeməyən yedirən, içməyən içirən, geyməyən geydirən ataların sözü nə nə mənada ağır ola bilərdi ki?

Müqayisə edirəm çox şeyi, dövrün qadınına ”sən güclüsən” deyədeyə ərindən, ailəsindən uzaqlaşdıran cərəyanlar daha çox kişilərin ailədə, cəmiyyətdə rolunun azalmasına, özünü yetərsiz, qədərsiz hiss etməsinə xidmət etmədimi? Ərindən çox qazanan, ərindən daha yaxşı iş tapa bilən qadınlara ailəsi ilə hesablaşmamağı, ər ilə məsləhətləşməməyi öyrətmədilərmi ona güc vəd edənlər? Qadınlar var ki, bu tələyə düşmədi, həyat yoldaşını yem etmədi bu cərəyanlara, qazancını ər qazancından ayırmadı, işsiz qalan ərini xor görmədi, ərini rəzil, yox vəzir etdi.

Amma qadınlar da var ki, güc, iş adı altında çökdü. Qadınlar məmnundurmu bu halından? Deyillər. Qadının yükü artdı gücləndikcə. Onun qoltuğunun altına qarpız qoyanlar qarşısında öhdəlikləri çoxaldı. Həm çöldə, həm evdə iş yükünün altında əzildikcə əzildi. Əri iş tapa bilməyən qadınlar ailənin bütün yükünü çiyninə almalı oldu. Evdən məktəbə, məktəbdən bağçaya, bağçadan işə, işdən dükan-bazara, oradan da evə qaçmaqla keçir müasir və güclü qadının günü. 1 işi 10 olan qadın razıdırmı vəziyyətindən? Onun gətirdiyi pulun, qazancın altında isə kişilər əzildi - pul qazana bilmədiyi üçün ailədə söz haqqını itirdi zamanla, ailə büdcəsi bir əldə cəmləndi, atalar uşaqlarına xərclik verə bilmədi, beləcə onların gözündə cılızlaşdı, kiçildikcə kiçildi.





Bütün sosial araşdırmalar, bütün dəstəkləyici proqramlar qadınların ətrafında cəmləşdi, kişilər köməksiz, dəstəksiz qaldı bu proseslərin fonunda. Dedilər ki, ”kişidir, bacarar”, ”kişidir, öhdəsindən gələr”, ”kişilərə həyat asandır” və daha bu kimi sözlər. Kişilər iş tapa bilmədi, kişilər qazanc gətirə bilmədi, kişilər kölgədə qaldı, kişi fiquru silindi yavaş-yavaş cəmiyyətdən.

Bu bizə nə qazandırdı? Güclü qadınlar və təməli sarsılmış ailə modeli. Nikahsız ittifaqlar və atasız doğulan uşaqlar. Bütövlüyü itirilmiş ailələr və boşanma statistikasındakı yüksək şkala. Kişilik anlayışı sıxışdırıldıqca cəmiyyət yönünü, istiqamətini itirdi, kişilər kölgədə qaldıqca dəyərlər aşındı. Qadınlar kimə, nəyə xidmət etdiklərinin fərqində olmadan gender, feminizm xəstəliyinə düçar oldular. Ailəsini o cərəyanlara qurban verənlərin sayı hər gün artdı, qurban verməyənlərə isə çevrəsindəki qadınların stiqması artdı.





Kişilərin nüfuzu geri qaytarılmalıdır. Kişi sözünə güvənilən, etibar edilən cəmiyyət təkrar formalaşmalıdır. Arvadı evdən qaçan, efirə çıxıb ona xəyanət edən arvadına yalvaran, körpə uşağa tamah salan, təcavüz edən, evli ikən qız qaçıran, qonşu gəlinə göz qoyan, gəlininə sataşan ”kişi”lərin artdığı cəmiyyətdə tab gətirmək getdikcə daha da çətinləcək bizim üçün. Çünki qadınlar əsl kişi görmək istəyir yanında, ailəsində, çevrəsində, cəmiyyətdə. Qadınlar güvənmək istəyir - namununa sataşmayacaq, ona göz qoymayacaq, yoluna daş yox, gül düzəcək kişilərə. Başqasının namusuna sataşmayan, evli qadını gözünə kəsdirməyən, başqa qızlara da öz qızı, bacısı kimi davranan kişilərin soyqırımı dayanmasa hamı üçün çətin olacaq yaşamaq.

19 noyabr Ümumdünya Kişilər Günüdür: güclü olduğu üçün güc tətbiq etməyən, müasir ”kişilik anlayışı”nın əyinlərinə dar gəldiyi, sözdə yox, əməldə kişi olanların günü. Güclü olmaq onlara baha başa gəlir, həm öz yüklərindən, həm də cəmiyyətin onların boyuna biçdiyi rolun yükündən şikayətlənmirlər amma. İndi sözün bütün mənalarında həqiqi kişi olmaq da çətindir. Onlar zamana, dövrə, vəziyyətə görə ”oversize” ola bilmirlər, təkölçülüdürlər çünki, kişilik xarakter məsələsidir çünki...

Yaxşı kişilər, yaxşı ki, var...

***Lalə Mehralı***

SƏS
17 oktyabr
2025-ci il

# Məktəblərdə məktəb psixoloqlarının sayı niyə azdır?





## EKSPERT AÇIQLADI

“Məktəblərdə psixoloqların az olması problemi hər zaman ən aktual məsələlərdən biridir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elçin Murad bildirib. Onun sözlərinə məktəblərdə psixologiya sistemi ümumiyyətlə sıfır səviyyəsindədir: ”Məktəblərdə psixologiya şöbəsinin olmaması ən böyük problemlərdən biridir. Şöbə rəsmi olaraq kağız üzərində sənədlərdə var. Ancaq realda belə bir şöbə yoxdur. Şagirdlərin məktəbdə psixoloq yanına yönləndirilməsi, psixoloqun şagirdlə maarifləndirici söhbət aparması, psixoloqun şagirdi hansısa mənfi yoldan çəkindirməsi, şagirdin hansısa bir problemi varsa, psixoloqun o şagirdlə işləməsi, valideynlə əlaqəli şəkildə bu problemi aradan qaldırması kimi belə hallar yoxdur. Ona görədə şagirdlərin üzərindən müxtəlif zərərverici alətlərin aşkarlanması adi hal alıb.

Hər il müxtəlif universitetlərdə təhsildə sosial psixoloji xidmət ixtisası var. Hər il yüzlərlə tələbə bu ixtisası bitirir, məzun olur. Bu ixtisası hər il bitirən tələbələr hara gedir, nə işlə məşğul olur bəlli deyil. Yəni öz ixtisasından kənar işlərdə işləyir. Halbuki hər məktəbdə 2 psixoloq olmalıdır. Məktəblərdə psixologiya şöbəsi aktiv şəkildə işləməlidir. Məktəblərdə psixoloq çatışmazlığı aradan qaldırılmazsa, şagirdlər arasında anormal halların sayı, cinayətlərin sayı dahada artacaq. Məktəblərdə psixoloji problemləri olan şagird sayı çoxdur. Mən özüm bir övlad atası olaraq deyə bilərəm ki, övladımın oxuduğu orta məktəbdə, eyni sinifdə psixoloji problemi olan bir şagird var. Həmin şagird hələ 2-ci sinif şagirdi olmağına baxmayaraq öz yaşıdlarına hədə qorxu gəlir”.

***İlkin Məmmədkərimov***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Barselona”dan Messi ilə bağlı nostalji paylaşım



“Barselona” klubunun əfsanəvi futbolçusu Lionel Messinin komanda ilə ilk oyunundan 21 il ötüb. Katalon klubu bu münasibətlə sosial şəbəkə hesablarında xüsusi paylaşım edib. Paylaşımda argentinalı ulduzun ”Barselona” formasında debüt etdiyi gün xatırlanıb. Messi ilk dəfə 2004/2005 mövsümündə ”Espanyol”a qarşı keçirilən oyunda ”Barselona”nın əsas heyətində meydana çıxmışdı. Klubun paylaşımında belə bir ifadə yer alıb: ”Messi ilə nələrin baş verəcəyini bilmirdik.”

Qeyd esək ki, ulduz oyunçu 2021-ci ilə qədər ”Barselona”nın şərəfini qoruyub, daha sonra iki mövsüm PSJ-də çıxış edib. Hazırda ”İnter Mayami” klubunun heyətində forma geyinən Messi bu mövsüm MLS-də 27 matçda 26 qol vurub, 15 məhsuldar ötürmə verib.

# Ölkədə qadın cinayətləri və qadın zorakılığı halları niyə durmadan artır?

## Psixoloq mühüm detalları açıqladı

”Sevgi görməyən qadın depressiyaya düşür”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Ezgi Şahin bildirib. Onun sözlərinə görə, əsas səbəb kişinin qadına önəm verməməsidir: ”Bu hal davam etdikcə bir müddət sonra qadın öz həyat yoldaşı və ya sevgilisinə qarşı soyumağa başlayır. Təbiiki bunu kişi qəbul edə bilmir və bir müddət sonra qadın cinayəti baş verir və ya kişi qadına qarşı şiddət göstərir. Çünki kişinin psixoloji durumu o həddə olur ki, o nə etdiyinin fərqində olmur. Sosial şəbəkələr və mediada tez-tez qadın zorakılığı və qadın cinayətləri xəbərləri verildiyi üçün insanlar artıq cinayət və zorakılığı normallaşdırırlar.

Qadına qarşı basqı olan dünyanın hər yerində cinayət halları çox olur. Türkiyə və Azərbaycan kimi ”mental dəyərlərin” yüksək olduğu ölkələrdə qadın azad ola bilmir. Belə olan halda isə cinayətlər artır. Xarici ölkələrdə qadınlara qarşı olan incə davranış və diqqət müsəlman ölkələrində yoxdur. Qadına olan incə davranış və diqqət o demək deyil ki, kişi qadına yer verməlidir. Mən bunu nəzərdə tutmuram. Söhbət qadına qarşı olan məsuliyyət və diqqətdən gedir. Bundan başqa kişinin hər addımda qadından məsləhət almasından gedir. Kişi qadını saymır və qadında haqlı olaraq başqa birində o diqqəti axtarır”.




Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000